## Azərbaycanın dünya elminə bəxş etdiyi şərqşünas alim - Aida İmanquliyeva

4



Səs
№ 169 (6610) 17 sentyabr 2022-ci il. Qiymәti 60 qəpik

## İlham Əliyevin ŞƏT Zirvəsində iştirakı göstərilən yüksək ehtiramın göstəricisidir!

2




# Pelosini Ermənistana kim göndərir?

ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Ermənistana səfəri barədə əvvəllər də erməni mənbələri yazırdı. Sentyabrın 12-dən 13-nə keçə gecə Ermənistan-Azərbaycan sərhədində baş verən qarşıdurmadan sonra bu səfərin planlaşdırıldını deyənlər də var. Pelosinin şəxsi təşəbbüsü ilə baş tutan səfərin ABŞ-dakı erməni lobbisinin xahişi ilə gerçəkləşməsi daha inandırıcıdır. Çünki, Pelosinin ermənilərin Konqresdə bir nömrəli dostu olduğu kimsəyə sirr deyil. Bəs Nensi Pelosi kimdir? Xanım spiker prezident Baydenin komandasında Amerikanın ən güclü siyasi fiqurlarından biridir.

5



## BMT yenə “sinifdə qaldı"



6

## Düzgün İNFORMASİYA MÜHARİBƏSİ necə aparılmalıdır?




5

## Dəyişməyən erməni xisləti: törədilən terror və qətliamlar



13

8



## Hindistanda “hindus faşizmi” aktları - təcavüzkar kimdir?

## Damarları təmizləyən məhlul



16

## Aqrar sektorun sığortalanmasına niyə maraq göstərilmir?



7

*Bu sahədə fəaliyyət göstərən mütəxəssislər dünyada mövcud olan aqrar sığorta modellərini araşdıraraq mütərəqqi kənd təsərrüfatı sığortası sistemi olan ABŞ, Kanada, İspaniya, Türkiyə, İsrailin təcrübələrini öyrənir. Ölkələrin kənd təsərrüfatı mütəxəssislərinin görüş və səfərləri, əldə edilmiş razılıqlar, təcrübə mübadilələri bu sahədə mövcud sistemləri dərinliklərə yiyələnməyə imkan verir.*



11

## Sosial şəbəkə asılılığı nədir?

Sosial media istifadəsi gündəlik fəaliyyətimizin bir hissəsidir. Ondan istifadə etməyin və etməməyin faydaları son illərdə müzakirə olunur.

# İlham Əliyevin ŞƏT Zirvəsində iştirakı göstərilən yüksək ehtiramın göstəricisidir!




## *Şanxay Əməkdaşlığı Təşkilatında təmsil olunan ölkələr Azərbaycanı öz aralarında görmək niyyətlərini açıq şəkildə bəyan edirlər*

***Özbəkistanın Səmərqənd şəhərində Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv ölkələrin növbəti sammiti keçirilib. Sammitdə Azərbaycan Prezidenti İlham Əliyev də iştirak edib. Dövlətimizin başçısı sammitdəki çıxışında qeyd edib ki, Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrinin işə düşməsinə sanballı töhfələr verib. Hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ildə 15 milyon ton yükaşırma qabiliyyətinə malikdir və bu, ildə 25 milyon tona qədər artırıla bilər. Bu ilin ilk 7 ayında Azərbaycan ərazisindən keçən tranzit 50 faizə yaxın artıb.***




Prezident İlham Əliyev çıxışında diqqətə çatdırıb ki, Azərbaycan 52 gəmi ilə Xəzər dənizində ən böyük mülki yük donanmasına malikdir. Bakı gəmiqayırma zavodu bütün növ gəmilər istehsal edə bilir.

Son 20 ildə Azərbaycanda 19 min kilometr avtomobil yolu, 1400 kilometr dəmir yolu tikilib və ya əsaslı təmir edilib. Bu gün Azərbaycan 2020-ci il İkinci Qarabağ müharibəsindəki Qələbədən sonra işğaldan azad edilmiş ərazilərdə minlərlə kilometr avtomobil yolu və yüzlərlə kilometr dəmir yolu çəkir. Azərbaycan 18 təyyarə ilə regionumuzda ən böyük mülki hava yük donanmalarından birinə malikdir. 2024-cü ilin sonuna qədər ölkədə beynəlxalq hava limanlarının ümumi sayı bugünkü 7-dən 9-a çatdırılacaq.

Dövlətimizin başçısı həmçinin qeyd edib ki, 2020-ci ilin sonunda Qarabağ münaqişəsinin həlli regionumuzda nəqliyyat-kommunikasiya layihələrinin inkişafı üçün yeni imkanlar yaradıb: ”Zəngəzur dəhlizi açıldıqdan sonra bu, region ölkələrinin nəqliyyat imkanlarını daha da artıracaq və marşrut boyu yerləşən bütün ölkələr üçün faydalı olacaqdır.

Azərbaycan Ermənistana ölkələrin bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınmasına əsaslanan sülh müqaviləsi üçün beş əsas prinsip təqdim edib. İndi biz ilkin şərtlər və süni ləngimələr olmadan sülh sazişi layihəsi üzərində işə başlamalıyıq. Lakin təəssüf ki, bu il sentyabrın 13-də Ermənistan Azərbaycanla dövlət sərhədində genişmiqyaslı hərbi təxribat törətmişdir. Azərbaycan silahlı qüvvələri bu təxribatın qarşısını qətiyyətlə almışdır. Ermənistanın bu təxribatı iki ölkə arasında normallaşdırma prosesinə böyük bir zərbədir. Buna görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Bəzi aparıcı beynəlxalq təşkilatların səmərəsizliyi narahatlıq doğurur. Bununla əlaqədar 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb edən dörd qətnaməsini qeyd etmək istərdim. Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün ərzində yerinə yetirildiyi halda, bizim vəziyyətimizlə bağlı qəbul olunmuş qətnamələr 27 il ərzində icra olunmamış qaldı. Azərbaycan Qarabağ münaqişəsini özü hərbi-siyasi yolla həll edib və Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələrinin icrasını təmin edib.

2019-cu ildən Azərbaycan 120 ölkəni birləşdirən, BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına sədrlik edir. Bizim sədrliyimiz yekdilliklə daha bir il - 2023-cü ilə qədər uzadılıb və bu, ölkəmizə olan hörmətin və etimadın göstəricisidir. Azərbaycan öz fəaliyyətini beynəlxalq hüquqa, ədalətə və qlobal təhlükəsizliyə əsaslanaraq həyata keçirməkdə davam edəcək.”

İstər ərazisinə, istərsə də əhali saylarına görə dünyanın ən böyük ölkələrindən bir neçəsinin təmsil olunduğu bu kimi nüfuzlu təşkilatın Zirvə görüşündə ölkə başçımızın da iştirak etməsi, ümumiyyətlə, Azərbaycanın belə mötəbər təşkilatın tədbirinə dəvət edilməsi ölkəmizin, xüsusilə Prezident İlham Əliyevin dünya miqyasında nüfuzunun və dövlətimizin başçısına göstərilən yüksək ehtiramın, habelə onun həyata keçirdiyi uğurlu diplomatiyasının əyani təsdiqi və məntiqi sübutudur.

### ŞƏT-lə əməkdaşlığını uğurla inkişaf etdirən Azərbaycan bu təşkilatda müşahidəçi statusunu da almaq niyyətindədir və proseslər də məhz bu istiqamətdə inkişaf etdirilir

Söz yox ki, ölkəmizin üzvü olmadığı bir təşkilatda mötəbər yer tutması Azərbaycanın son dövrlərdə siyasi, iqtisadi və s. sahələrdə əldə etdiyi nailiyyətlərinin nəticəsi, həmçinin ona verilən dəyərin göstəricisidir. Artıq o da məlumdur ki, ŞƏT-lə əməkdaşlığını uğurla inkişaf etdirən Azərbaycan bu təşkilatda müşahidəçi statusunu da almaq niyyətindədir və proseslər də məhz bu istiqamətdə inkişaf etdirilir.

*Ardı Səh. 3*

# İlham Əliyevin ŞƏT Zirvəsində iştirakı göstərilən yüksək ehtiramın göstəricisidir!



Əvvəli-Səh-2

Habelə, qeyd etmək vacibdir ki, orada təmsil edilən ölkələr də Azərbaycanı öz aralarında görmək niyyətlərini açıq şəkildə bəyan edirlər.

Daha bir məqama diqqət yetirək. Belə ki, artıq dünya miqyasında tolerantlığın və multikulturalizmin nümunəvi ölkəsi kimi tanınan Azərbaycan dünyanın əksər ölkələri kimi, ŞƏT üzvləri ilə də humanitar və s. əhəmiyyətli sahələrdə fəal əməkdaşlıq əlaqələri yaradıb. Həmçinin, Bakıda keçirilən böyük Zirvə görüşlərində, Forum və Konfranslarda iştirak edən ŞƏT ölkələri, eləcə də digər ölkələr Azərbaycanın ən nüfuzlu təşkilatlarda təmsilçiliyi məsələsində maraqlı olduqlarını bəyan edirlər. Ümumiyyətlə, Azərbaycana olan diqqət və ehtiram özünü daim nümayiş etdirib. Misal üçün, 2021-ci ildə ŞƏT-in Pekindəki mənzil-qərargahında Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyi qeyd edilib, qərargahın binasında dahi şairin büstü ucaldılıb. Qeyd edək ki, dahi Nizami Gəncəvi Çin filosofu Konfusidən sonra ŞƏT-in qərargahında büstü qoyulmuş ikinci tarixi şəxsiyyətdir.

### Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrinin işə düşməsinə mühüm töhfələr verən Azərbaycanın rolu getdikcə artmaqdadır

Həmçinin dövlətimizin başçısının təşəbbüsləri ilə son illər həyata keçirilən irimiqyaslı infrastruktur layihələri sayəsində Azərbaycan mühüm beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilib. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrinin işə düşməsinə mühüm töhfələr verən Azərbaycanın rolu getdikcə artmaqdadır.

Məlum olduğu kimi, Azərbaycana qarşı xain siyasətini davam etdirən Ermənistan silahlı qüvvələri son günlər dövlət sərhədində yenidən genişmiqyaslı təxribatlara əl atdı. Daim beynəlxalq aləmə sülh və əməkdaşlıq ismarıclarını verən Azərbaycan ərazilərini işğaldan azad etdikdən sonra dərhal genişmiqyaslı quruculuq-bərpa işlərinə başladığı halda, hələ də işğalçılıq xislətlərindən əl çəkməyən Ermənistan davamlı şəkildə xəyanətkarlıq, siyasi həyasızlıq taktikasını seçdiyini sərgiləməkdədir.

### Daim İlham Əliyevin sarsılmaz, qətiyyəti və sərt arqumentləri qarşısında gülünc və isterik vəziyyətə düşən erməni baş naziri Nikol Paşinyan yenidən həmin vəziyyətə düşəcəyindən qorxaraq ŞƏT-in Zirvə görüşündə iştirak etməkdən qaçdı

Ancaq fakt budur ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu iki il əvvəl olduğu kimi, yenə də Ermənistan silahlı qüvvələrinin layiqli cavabını verdi. Məhz bu hadisələrdən sonra çıxılmaz vəziyyətə düşən Ermənistanın baş naziri Nikol Paşinyan ŞƏT-in Səmərqənddəki Zirvə görüşündə iştirak etməyəcəyini bəyan etdi və təbii ki, bu da gözlənilən bir məsələ idi. Daim Azərbaycan Prezidenti İlham Əliyevin sarsılmaz, qətiyyəti və sərt arqumentləri qarşısında gülünc və isterik vəziyyətə düşən erməni baş naziri Nikol Paşinyan yenidən həmin vəziyyətə düşəcəyindən qorxaraq ŞƏT-in Zirvə görüşündə iştirak etməkdən qaçdı.

Artıq fakt budur ki, Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı kimi ali bir qurumun Zirvə görüşündə iştirakı və dəvət alması dünyada qətiyyətli və uzaqgörən lider kimi böyük nüfuz qazanmış Prezident İlham Əliyev şəxsiyyətinə dərin hörmət və ehtiramın göstəricisidir. Azərbaycanın bu tədbirdə iştirakı, eyni zamanda, ölkəmizin Şərq ilə Qərb arasında bütün sahələrdə mühüm körpü rolunu oynamasının əyani təsdiqi sayıla bilər.

### Azərbaycan hazırda ŞƏT-də dialoq tərəfdaşı statusuna sahibdir

Qeyd edək ki, Şanxay Əməkdaşlıq Təşkilatı 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. Hazırda ŞƏT-in 8 üzvü (Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan), 4 müşahidəçi üzvü (Əfqanıstan, İran, Monqolustan, Belarus) və 9 dialoq tərəfdaşı (Azərbaycan, Türkiyə, Şri-Lanka, Kamboca, Nepal, Ermənistan, Misir, Qətər, Səudiyyə Ərəbistanı) var. İranın Təşkilatın üzvlüyünə qəbul edilməsi, Misir, Qətər və Səudiyyə Ərəbistanının isə dialoq tərəfdaşı statusu almasına dair artıq siyasi qərarlar qəbul olunub və prosedur məsələləri tamamlanmaq üzrədir.

Təşkilatın əsas məqsədləri üzv dövlətlər arasında qarşılıqlı etimad və qonşuluq münasibətlərinin gücləndirilməsi; siyasət, ticarət və iqtisadiyyat, elm və texnologiya, mədəniyyət, o cümlədən təhsil, enerji, nəqliyyat, turizm, ətraf mühitin qorunması və digər sahələrdə effektiv əməkdaşlığın inkişaf etdirilməsi; regionda sülh, təhlükəsizlik və sabitliyin əldə edilməsi üçün birgə səylərin göstərilməsi, yeni siyasi və iqtisadi beynəlxalq düzənin yaradılması üçün addımların atılmasından ibarətdir.

Azərbaycan hazırda ŞƏT-də dialoq tərəfdaşı statusuna sahibdir. 2016-cı ildə Azərbaycan ilə ŞƏT arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. ŞƏT ilə əməkdaşlıq istiqamətləri arasında təşkilatın ənənəvi prioritet sahələri olan və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin və sabitliyin təminatı müəyyənləşdirilib. Həmçinin ölkəmizin beynəlxalq müstəvidə mühüm rol oynadığı sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təşviqi sahələri də diqqət mərkəzində olan məsələlərdəndir.

**Rövşən RƏSULOV**

## "Biz Qafqazda vəziyyətin sabit olması üçün nə lazımdırsa edəcəyik"

*Səmərqənddə Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə görüşü olub*



Dünən Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olub. Görüşdə çıxış edən Rusiya Prezidenti Vladimir Putin qeyd edib ki, ikitərəfli münasibətlərimiz çox uğurla inkişaf edir:

-Hörmətli İlham Heydər oğlu, Sizi bu dəfə Şanxay Əməkdaşlıq Təşkilatı məkanında, bu təşkilatın Sammitində görməyə çox şadam. Bu gün biz həm təşkilatın özünün işi, həm də ikitərəfli münasibətlər, regionda vəziyyət barədə artıq dəfələrlə söhbət etmişik, fikir mübadiləsi aparmışıq.

İkitərəfli münasibətlərə gəldikdə, onlar inkişaf edir, çox uğurla inkişaf edir, şübhəsiz, bunu qeyd etmək lazımdır. Ticarətin, investisiyaların həcmi artır, müxtəlif nazirliklər, idarələr, parlamentlər xətti ilə əməkdaşlıq həyata keçirilir.

Lakin, əlbəttə, Ermənistan-Azərbaycan sərhədində vəziyyətin kəskinləşməsi bu gün hamımızı çox narahat edir. Biz Sizinlə bu barədə danışmışıq. Mən dünən gecə Ermənistanın baş naziri Nikol Paşinyanla danışmışam. Siz bunu bilirsiniz, mən bu barədə Sizi məlumatlandırmışam. Yaxşı ki, əlaqələndirilmiş səylərimiz sayəsində hər halda eskalasiyanı dayandırmaq mümkün olub, lakin mən belə başa düşürəm ki, hər halda vəziyyət gərgin olaraq qalır. Sizinlə görüşmək, bütün bu məsələlər barədə söhbət etmək imkanına görə çox şadam, çünki onların hamısı vacibdir.

**Prezident İlham Əliyev:**

-Sağ olun, Vladimir Vladimiroviç. Yeni görüşümüzə çox şadam.

Bundan əvvəlki görüşümüzdən üç aydan az vaxt keçib. Lakin bu müddətdə də biz daim əlaqədə olmuşuq, telefonla danışmışıq, həmçinin ikitərəfli münasibətlərin çox müsbət dinamikasını görürük.

Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə imzalanandan sonra da müxtəlif sahələr üzrə mühüm sənədlər imzalanıb və Sizin qeyd etdiyiniz kimi, bütövlükdə görürük ki, əmtəə dövriyyəsində və nəqliyyat sahəsində yükdaşımaların həcmi artır. Bundan əlavə, indi biz tranzit imkanlarımızın potensialını tam həcmdə işə salmaq niyyətindəyik. Belə ki, nəticələr göz qabağındadır. Əminəm ki, biz bu ili bütün istiqamətlər üzrə yaxşı nəticələrlə başa vuracağıq.

Ermənistan-Azərbaycan sərhədi zonasında vəziyyətin kəskinləşməsinə, eskalasiyaya operativ reaksiya verdiyinizə görə də Sizə təşəkkürümü bildirmək istərdim. Döyüş toqquşmaları 8 saatdan az davam edib və dayandırılıb. Doğrudur, erməni tərəfi atəşkəs rejiminə dərhal əməl etməyə başlamadı, lakin bütövlükdə artıq iki sutkaya yaxındır ki, atəşkəs rejiminə riayət olunur. Sərhəd münaqişələri olur. Lakin əsas budur ki, vəziyyəti sabitləşdirmək, onu dinc şəraitə keçirmək mümkün olub. Mənim indi yerlərdən aldığım informasiyaya görə, dediyim kimi, artıq iki günə yaxındır ki, vəziyyət sabitləşib. İndi əsas məsələ münasibətlərin başlanmaqda olan normallaşması prosesini pozmamaq, bu istiqamətdə irəliləməkdir. Biz Rusiyanın bu istiqamətdə, o cümlədən Rusiya, Azərbaycan və Ermənistan baş nazirlərinin müavinləri səviyyəsində nəqliyyat kommunikasiyalarına dair üçtərəfli komissiya çərçivəsində, delimitasiya prosesi çərçivəsində səylərini, habelə sülh sazişinə dair danışıqlara başlamaq planlarını alqışlayırıq. Əlbəttə, biz bunu ətraflı müzakirə edəcəyik. Bir daha demək istəyirəm ki, Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli sənədlərə sadiqdir və biz Qafqazda vəziyyətin sabit olması üçün nə lazımdırsa edəcəyik.

# Azərbaycanın dünya elminə bəxş etdiyi şərqşünas alim - Aida İmanquliyeva

*Mehriban xanım Əliyeva: "Aida xanımın arzuları, onun elmi irsi bu gün də yaşayır və dövlətimizə xidmət edir"*



***Ən yüksək mənəvi keyfiyyətlərin daşıyıcısı olan Azərbaycan qadını iradəsi, saflığı, sədaqəti, qətiyyəti, dözümlülüyü ilə cəmiyyətimizdə böyük nüfuz qazanıb. Azərbaycan qadını yüksək pillələrdə dayanır, ölkə daxilində və beynəlxalq aləmdə böyük nailiyyətlər qazanır, ictimai həyatın bütün sahələrində öz sözünü inamla deyir. Azərbaycan qadını dövlətimizin inkişafına və cəmiyyətimizin yüksəlişinə özünün layiqli töhfələrini verir. Azərbaycanın ictimai-siyasi, mədəni həyatında kifayət qədər böyük nüfuza sahib olan qadınları olub və var.***

Azərbaycanın tarixində ilk azərbaycanlı qadın - ərəbşünas elmlər doktoru olan böyük alim Aida İmanquliyevanın da öz yeri, mövqeyi var. Bütün həyatını xalqının tarixinin, ənənələrinin minillik dərin kökləri ilə bağlı olduğu Şərq mədəniyyətini və ədəbiyyatını öyrənməyə sərf edərək, şərəfli bir ömür yaşamış Aida xanım bütün elmi-bədii yaradıcılığı, ictimai fəaliyyəti ilə böyük nüfuz qazanmışdır. Onun bütün elmi-bədii yaradıcılığı, ictimai fəaliyyəti böyük istedada malik olduğunu göstərir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Aida xanım haqqında belə yazır: "Aida xanım unudulmaz bir şəxsiyyət idi. O, qısa, amma çox parlaq və xoşbəxt həyat yaşamışdır. Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləmişdir. Yüksək savadlı, ziyalı, vətənpərvər, prinsipial bir alim, eyni zamanda çox zərif, çox gözəl, bütün sevgisini ailəsinə bağışlayan, hər zaman ürəkdən kömək göstərməyə hazır olan bir qadın idi. Aida xanımın bütün elmi yaradıcılığı Azərbaycan ilə Şərq dünyası arasında əlaqələrin qurulub möhkəmlənməsinə yönəldilmişdir. Eyni zamanda, o, Azərbaycan elminin düşüncələrinin, fəlsəfəsinin, islam aləmində yayılmasına nail olmuşdur. Bu gün müstəqil Azərbaycanda, demək olar ki, Aida xanımın bütün arzuları artıq reallıqdır və respublikamızın müsəlman ölkələri islam dünyası ilə nəinki elmi, mədəni əlaqələr, həm də ən yüksək səviyyədə iqtisadi, siyasi əlaqələr qurubdur. Bütün bu sahələrdə Aida xanımın arzuları, onun elmi irsi bu gün də yaşayır və dövlətimizə xidmət edir".

Aida xanımın qələmindən çıxan hər bir əsər gərgin, böyük bir zəhmətin nəticəsidir. XX əsrdə Azərbaycanın dünya elminə bəxş etdiyi görkəmli simalardan biri - şərqşünas-alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın tərcümeyi-halına nəzər salsaq görərik ki, Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açıb. Görkəmli jurnalist, pedaqoq, əməkdar elm xadimi olan atası Nəsir İmanquliyev Azərbaycan mətbuatının bünövrəsini qoyanlardan biri olmuş və uzun müddət "Bakı" və "Baku" qəzetlərinin baş redaktoru işləmişdir. Aida İmanquliyeva Bakıda 132 saylı orta məktəbi qızıl medalla bitirdikdən sonra 1957-1962-ci illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb dili şöbəsində təhsil alıb. 1966-cı ildə Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda ərəb filologiyası üzrə aspiranturanı bitirdikdən sonra Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda kiçik elmi işçi, daha sonra baş elmi işçi (1966-1976), Ərəb filologiyası şöbəsinin müdiri (1976-1988), elmi işlər üzrə direktor müavini (1988-1991) vəzifəsini icra edən Aida xanım 1991-ci ildən həmin institutda direktor vəzifəsində çalışmışdır. 1976-1988-ci illərdə, institutun ərəb filologiyası şöbəsinə rəhbərlik etdiyi müddətdə, 10 nəfər ərəbşünas namizədlik dissertasiyalarını müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsinə yiyələnib. Şərqşünaslıq İnstitutunun elmi və ictimai-siyasi həyatında yaxından iştirak edən Aida İmanquliyeva işgüzar fəaliyyətinə görə, 1988-ci ildə institutun elmi işlər üzrə direktor müavini vəzifəsinə təyin olunmuş, bir il sonra isə, uzun illər üzərində işlədiyi doktorluq dissertasiyasını müdafiə edərək, filologiya elmləri doktoru adına layiq görülmüşdür. Beləliklə, Azərbaycanda ərəb ədəbiyyatı üzrə ilk elmlər doktoru, ilk professor - qadın olan Aida İmanquliyeva elmi işlərlə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olub. O, Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatından dərs deyib. Buna görə də, SSRİ Nazirlər Soveti yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyasının qərarı ilə, ona "Xarici Asiya və Afrika xalqları ədəbiyyatı" ixtisası üzrə, 1991-ci ilin mart ayında professor elmi rütbəsi verilmişdir. Qeyd edək ki sentyabrın 19-u Aida xanım İmanquliyevanın anım günüdür.

## YAŞADIĞI MÜHİT ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN MİLLİ ÖZÜNÜDƏRKİNİN QORUNUB-SAXLANILMASI VƏ İNKİŞAFI İDEALINA SADİQ QALDI

A.İmanquliyeva 1970-ci illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb dili müəllimi, filologiya elmləri namizədi M.Qarayevlə birlikdə "İnsan və quş" adlı hekayələr məcmuəsini çap etdirir. Bundan əlavə, Ərəb filologiyası şöbəsinin əməkdaşlarının tərcüməsində İraq yazıçılarının əsərlərindən ibarət kiçik bir antalogiyanın tərcüməsində və çapında da Aida xanımın gərgin əməyini xüsusi qeyd etmək lazımdır. "Ağ günlərin sorağında" adlanan həmin məcmuədə Aida xanımın tərcüməsində İraq yazıçısı Mahmud əz-Zahirin "Boğulmuş hıçqırıqlar" adlı hekayəsi də öz əksini tapıb. Bunlardan əlavə, Aida xanım müxtəlif illərdə respublikanın nəşriyyat orqanları tərəfindən ərəb ədəbiyyatı ilə bağlı çap olunmuş bir çox kitaba ön söz yazmış və xeyli sayda kitabın elmi redaktoru olmuşdur.

Aida İmanquliyevanın çoxsaylı elmi əsərlərində (3 monoqrafiya ("Mixail Nüayme" və "Qələmlər birliyi", "Cubran Xəlil Cubran", "Yeni ərəb ədəbiyyatının korifeyləri" və 70-dən artıq elmi məqalə) Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur ki, bu da, nəinki ərəb ədəbiyyatının, həmçinin, bütün yeni Şərq ədəbiyyatlarının gələcəkdə tədqiqi üçün çox mühüm zəmin yaradır. Aida xanım yalnız yaradıcılığı ilə deyil, həm də təşkilatçılıq bacarığı, rəhbərlik fəaliyyəti ilə öz həyatının missiyasına - yaşadığı mühit və rejim çərçivəsində Azərbaycan milli özünüdərkinin qorunub-saxlanılması və inkişafı idealına sadiq qalmışdır. İstedadlı gənc alim 1967-ci ilin martında Moskvada namizədlik dissertasiyasını uğurla müdafiə edib, filologiya elmləri namizədi alimlik dərəcəsini aldıqdan sonra, elmi fəaliyyətini Azərbaycan EA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunda davam etdirmişdir.

1964-cü ildə "Mixail Nüaymə və XIX əsr qabaqcıl rus ədəbiyyatı" adlı ilk mətbu məqaləsi "Azərbaycan" jurnalında dərc olunmuşdur. O, Livan yazıçısı M.Nüaymənin bir neçə hekayəsini ərəb dilindən rus dilinə tərcümə edərək, 1979-cu ildə Moskvada "Vostoçnıy almanax" jurnalında çap etdirmişdir. Müasir ərəb ədəbiyyatının aktual problemləri və rus-ərəb ədəbi əlaqələri haqqında məqalələri dövri mətbuatda - toplularda və elmi-kütləvi məcmuələrdə müntəzəm çap olunmuşdur.

## ŞƏRQŞÜNASLIQ MƏRKƏZLƏRİNDƏ MƏHCƏR ƏDƏBİYYATININ ƏN SANBALLI TƏDQİQATÇISI

Aida İmanquliyeva 1971-1973 və 1979-1981-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun nəşr etdirdiyi "Ərəb filologiyası məsələləri" məcmuəsinin tərtibçisi və redaktoru vəzifəsində çalışıb. "Yaxın Şərq xalqlarının müasir ədəbiyyatında tərəqqi və ictimai ədalət uğrunda mübarizə problemi" (1982), "Yaxın və Orta Şərqdə milli azadlıq hərəkatı məsələləri" (1985), "Şərq filologiyası məsələləri" (1986-1987), "Yaxın Şərq xalqları ədəbiyyatı imperializmə qarşı mübarizədə" (1987), "Xarici Şərqin problemləri: tarix və müasirlik" (1988), "Şərq ədəbiyyatında ənənə və novatorluq" (1988) məqalələr məcmuələrinin redaksiya heyətinin üzvlərindən, müəlliflərindən və redaktorlarından biri olmuşdur. İctimai işlərdə fəal çalışmışdır. A.İmanquliyeva 1987-ci ildə Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin üzvü və 1983-cü ildən etibarən, sözügedən cəmiyyətin Azərbaycan bölməsi sədrinin müavini olmuşdur. Moskva, Bakı, Düşənbə, Hamburq, Kiyev, Sankt-Peterburq, Poltava, Tbilisi və digər şəhərlərdə keçirilən Şərq problemlərinə həsr olunmuş beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir. Müasirləri onun haqqında belə yazırdı: "Aida xanım beynəlxalq aləmdə dünyanın görkəmli alimləri tərəfindən bütün şərqşünaslıq mərkəzlərində məhcər ədəbiyyatının ən sanballı tədqiqatçısı kimi qəbul edilir. Onun əsərlərindən tez-tez istifadə olunur, çıxış nöqtəsi kimi ona müraciət edilir və Aida xanımın fikirləri məhcər ədəbiyyatının ayrı-ayrı problemlərini öyrənmək üçün əsas mənbə rolunu oynayır. Aida xanımın təşəbbüsü ilə Azərbaycanda simpoziumlar çağırıldı. O, həmin simpoziumların həm təşkilatçısı, həm də əsas məruzəçilərindən biri idi. Bu da Aida İmanquliyevanın beynəlxalq elm aləmində nüfuzundan irəli gəlirdi".

## "HƏR BİR ƏDALƏTSİZLİYƏ QARŞI BARIŞMAZ MÖVQEDƏ DAYANAN, İŞİNƏ, ELMƏ VƏ PEDAQOJİ FƏALİYYƏTƏ HƏDSİZ SƏDAQƏTLİ OLAN ANAM ÖZ QISA HƏYATINDA İNANILMAZ ZİRVƏLƏRİ FƏTH ETDİ"

Bütün elmi fəaliyyətini Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcılıq üslubunun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapmasının tədqiqinə həsr edən Aida xanım özündən sonra çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə və yeni bir yol açmışdır.

Böyük insanın çoxşaxəli, zəngin fəaliyyəti Aida xanımı xanımlıqdan məhrum edə bilməmişdi. O, hər şeydən əvvəl öz ailəsini, həyat yoldaşını çox sevən gözəl qadın, qayğıkeş bir ana idi. Aida xanımda Azərbaycan qadınlarına xas olan ən nəcib keyfiyyətlər təcəssüm olunurdu. Onun ömür yolu həyatın, varlığın əsasında duran mənəvi bağları qurmağa, tamlığa və vəhdətə can atan bir insan idrakının, bir ana, bir qadın ruhunun təcəssümü olub. O, dünyamıza, xalqımıza, cəmiyyətimizə yüksək intellekti, zəngin mənəvi keyfiyyətləri ilə nümunə olan övladlar bəxş edib. Aida xanım Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın, akademik Nərgiz xanım Paşayevanın anasıdır. Mehriban xanım Əliyeva Aida xanımın onun bir şəxsiyyət kimi yetişməsində, kamilləşməsində rolunu belə dəyərləndirib: "Məsuliyyət hissini, hər bir işin əvvəlindən maksimum nəticə əldə etməyə çalışmağı, özünə tələbkar və intizamlı münasibəti mənə anam - nəcib, parlaq, prinsipial, istedadlı, məğrur, son dərəcə gözəl bir xanım olan Aida İmanquliyeva aşılayıb. Hər bir ədalətsizliyə qarşı barışmaz mövqedə dayanan, işinə, elmə və pedaqoji fəaliyyətə hədsiz sədaqətli olan anam öz qısa həyatında inanılmaz zirvələri fəth etdi. O, müasir ərəb ədəbiyyatının tədqiqi sahəsində öz yeni elmi məktəbini yaratdı, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru oldu. Anam dünya şöhrətli alim idi, onun əsərləri bu gün də elmi dairələrdə yüksək qiymətləndirilir. Lakin bununla yanaşı, o, hər zaman adı böyük hərflərlə yazılan əsl Qadın olaraq qalırdı. Onun böyük sevən ürəyi, incə və səxavətli qəlbi var idi".

***Zümrüd BAYRAMOVA***

# Düzgün İNFORMASİYA MÜHARİBƏSİ necə aparılmalıdır?




***Son dövrlər İnformasiya Müharibəsi ilə bağlı terminlərin müxtəlif sahələrdə geniş istifadə olunması və bununla bağlı konkret məsələlərin meydana çıxması yeni müharibə üsullarının reallaşdırılması problemlərini ortaya atdı. Həqiqətən də hər-hansı işi yerinə yetirməyə başlayarkən ilk növbədə istifadə olunacaq "alətin" əldə edilməsi vacibdir. Başqa sözlə, İnformasiya Müharibəsi (İM) sahəsində terminologiyanın təyin olunması problemlərlə daha yaxından tanış olmaqla yanaşı, İM texnologiyalarının araşdırılmasında mühüm əhəmiyyət kəsb edir.***



Ermənistan tərəfinin bir çox dezinformasiya yayması bu sahənin öyrənilməsini müasir gənclikdən tələb edir. Çünki müharibə və döyüş yalnız ön cəbhədə aparılmır. İnformasiya müharibəsi də müharibənin əsas hissəni təşkil edir. Buna görə S?A media nümayəndələrindən düzgün informasiya müharibəsinin necə aparılması ilə bağlı sorğu keçirib.



**“525-ci qəzet”in baş redaktoru Rəşad Məcid:** ”Bir neçə il əvvələ baxanda Azərbaycan sosial şəbəkələrində xeyli irəliləyişin olduğunu müşahidə edirik. ”Facebook”da həm rəsmi qurumların,, həm də fəal sosial şəbəkə istifadəcilərinin fikirləri mövcuddur. Amma yeni yaranan ”Tik-tok” sosial şəbəkəsində primitivlik və bəsitlik insanları düşünməkdən məhrum edir. Yalan xəbərlər daha çox ” Tik-tok”da əks olunur. ”Tik-tok”un bu məna-da məhdudiyyət qoyulmasını alqışlayıram. Gələcəkdə səviyyəli sosial şəbəkə istifadəçilərinin təsiri ilə ”Tik-tok”da da müəyyən maarifləmə işləri aparılmalıdır. Gələcəkdə Mətbuat Şurası fəaliyyətini genişləndirərək , mətbuatın özünü tənzimləmə qurumu kimi mediyaya təsir gücünü artıracaq. Etika kodeksinin zəruri tətbiqindən sonra genişlənən informasiya məkanında həm sosial şəbəkə istifadəçilərinə çağırış etməli , həm də etik qayda qanunlara riayət etdirilməsinə nəzarət etməliyik. Düşünürəm ki bu işlər görülsə nəticəsi olacaq”.

**Media eksperti Azər Həsrət:** ”İnformasiya müharibəsində indiki şəraitdə operativlik , dürüstlük hər şeydən öndə gəlir. Ona görə dünya elə qurulub ki, artıq yalnış və gecikmiş informasiya ilə bu mübarizədə irəli getmək mümkün deyil. Mən illərdir ki, Azərbaycanın informasiya savaşında daha çevik , daha doğru informasiyalar ilə önə çıxması zərurəti haqqında danışıram. Yəni, indiki şəraitdə hərbi qarşıdurma və təxribatları önləməklə bağlı məsələlərdə gecikmək olmaz. Eyni zamanda dünyaya tutarlı, əsaslı informasiyalar təqdim etməliyik. Biz gözləməməliyik ki, ermənilər nəsə dezinformasiya yaysın və biz onu təkzib edək. Ermənilərin paylaşdıqlarını təkzib edərək daha çətin situasiya ilə qarşılaşırıq. Belə bir deyim var:” Müqəddəs yer boş olmur”. Ona görə də elə etmək lazımdır ki, həmin müqəddəs yeri biz həm ermənilərdən, həm də havadarlarından daha tez dolduraq belə olduğu təqdirdə ilkin informasiya kimdən çıxırsa və ya hansı informasiya arqumentləşdirilmişsə o tərəf informasiya mübarizəsini qazanır. Yox, əgər boşluqları doldurmaqda geciksək və bu boşluqlar, qarşı tərəfdən doldursa təbii ki, sonrakı mərhələdə nəsə düzəliş etməklə irəli çıxmaq imkanımız olduqca zəifdir. Bu baxımdan operativlik və dürüstlüklə informasiya savaşında qalib gəlmək olar. Özəlliklə xarici dilləri bilmək və yeni texnologiyalardan xəbərdar olmaq lazımdır. İlk öncə dövlət , millət , vətən üçün çalışan adamların önə çəkilməsi lazımdır. Yəni nəsə yazıb kopyalamaq , informasiya müharibəsi demək deyil. İnformasiya müharibəsində daha çox orjinal paylaşımlara üstünlük verilməlidir. Bu orjinal informasiya və paylaşımları etmək üçün qabiliyyət gərəklidir. Bu baxımdan düşünürəm ki, bu bacarıqda olan şəxslərin önə çəkilməsi və şərait yaradılması informasiya savaşında bizim qələbəmizi tə**min edə bilər”.**

**Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Media eksperti Müşfiq Ələsgərli :** ”Müasir müharibələr yeni xarakterikaya bürünüb ki, indiki müharibələr hibrit və ya assimetrik müharibələr adlandırırlar. Yəni hibrit müharibələrin mənası budur ki, müharibənin bir hissəsi döyüş meydanında gedirsə, digər hissəsi diplomatik və informasiya müstəvisində aparılır. Bu baxımdan informasiya müharibələri müasir dövrün münaqişələrinin və müharibələrinin çox mühüm elementlərindən biridir. İnformasiya müharibəsi aparılarkən rəqib tərəflər çalışır ki, bir-biri haqqında təxribatçı və düzgün olmayan yalan informasiyalar yaysınlar. Ermənistan hazırda bu texnologiyadan çox ciddi şəkildə istifadə edir. Son 30 ildə Ermənistanın verdiyi informasiyaların demək olar ki, hamısının yalan olması aşkarlandı. Bu tip dezinformasiyaların əksəriyyəti hesablanıb ki, Azərbaycanın daxilində yalnış ictimai rəy yaransın. Məqsədli şəkildə Azərbaycana yönələn dezinformasiyalar ölkədə ruh düşkünlüyü , ictimai etimadsızlıq yaranması üçün məqsədli şəkildə yayılır. Bu yollar rəqibi zəiflədib özünə qələbə təmin etmək məqsədi daşıyır. Bu baxımdan Ermənistan və ermənilərə xidmət edən diaspor təşkilatları tərəfindən, eyni zamanda beynəlxalq erməni şəbəkəsi tərəfindən çoxlu sayda dezinformasiyalar və təxribat xarakterli informasiyalar Azərbaycan seqmentinə ötürülür. Azərbaycanın KİV-i peşəkardır. Onlar uzun müddətdir ki, ermənilərin bu cür təxribatlarına öyrəşiblər. Ona görə də ermənilərin bu təxribatları Azərbaycan KİV-ə törətməsi qeyri-mümkündür. Amma çox təəssüf ki, sosial şəbəkələr müstəvisində bu təxribatlar törədilə bilir. Sosial şəbəkələr bir texnologiya olaraq manipulyativ və düşmən tərəfindən təxribatçı informasiyalar yaymaq üçün çox əlverişli alətdir. Çünki burada istənilən şəxs saxta, anonim adlar, soyadlar və ya fake profillər ilə istənilənı yaya bilər. Erməni tərəfi də bundan istifadə edir. Saxta hesab



yaradaraq azərbaycanlı ad, soyadları olan profillər açaraq özlərinin istədikləri informasiyaları buradan ötürürlər. Azərbaycan cəmiyyətində çaşqınlıq və ictimai etimadsızlıq formalaşdırıb məqsədlərinə nail olmağa çalışırlar. Çox təəssüf ki, bəzən bizim erməni şəbəkəsinə xidmət edən sosial şəbəkə istifadəçiləri onlara bu işdə dəstək olurlar. Erməni şəbəkələrinin həmən təxribatçı informasiyaları tirajlamaqla onların dəyirmanına su tökmüş olurlar. Burada Azərbaycan əhalisi ayıq-sayıq olmalı gələn informasiyaların düzgünlüyünü dəqiqləşdirməlidir. Əlavə olaraq Azərbaycan dövlət qurumları təxribat xarakterli informasiyaları dərhal müəyyənləşdirib, ona aydınlaşdırıcı mövqe bildirməlidir. Sosial şəbəkə istifadəçiləri də bu rəsmi məlumatları paylaşmalıdırlar. Göründüyü kimi bəzən insanlar bilmədən bu təxribatların təsirinə düşürlər. Baxırıq ki, ”Tik-tok ” sosial şəbəkəsində baş verən hadisələr buna aydın misaldır. Bu baxımdan müvəqqəti bağlandı. Amma nəzərə almaq lazımdır ki, bu ” Tik-tok” sosial şəbəkəsi Ermənistanda da bloklanıb. Ümumilikdə götürdükdə ”Tik-tok” sosial şəbəkəsinə bir çox ölkələr ziddiyyətlə yanaşır. Bu baxımdan beynəlxalq konvensiyalar və qanunvericilik imkan verir ki, bu cür təxribatçı informasiyalar yayan sosial şəbəkə platformaları və qondarma KİV blokları bağlansın və ya fəaliyyəti müvəqqəti dayansın. İnformasiya müharibəsində Azərbaycanın mövqeyini bildirən informasiyalar yayılmalıdır. Əhalimiz və jurnalistlərimiz ehtiyyatlı olmalıdırlar ki, düşmənin təxribatçı informasiyaların təsirinə düşməsinlər və ictimai rəyi sabit saxlaya bilsinlər”.

***Qönçə Quliyeva***

## Pelosini Ermənistana kim göndərir?

ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Ermənistana səfəri barədə əvvəllər də erməni mənbələri yazırdı. Sentyabrın 12-dən 13-nə keçə gecə Ermənistan-Azərbaycan sərhədində baş verən qarşıdurmadan sonra bu səfərin planlaşdırıldını deyənlər də var. Pelosinin şəxsi təşəbbüsü ilə baş tutan səfərin ABŞ-dakı erməni lobbisinin xahişi ilə gerçəkləşməsi daha inandırıcıdır. Çünki, Pelosinin ermənilərin Konqresdə bir nömrəli dostu olduğu kimsəyə sirr deyil.

Bəs Nensi Pelosi kimdir? Xanım spiker prezident Baydenin komandasında Amerikanın ən güclü siyasi fiqurlarından biridir. 2019-cu ildən, daha əvvəl isə 2007-2011-ci illərdə ABŞ Nümayəndələr Palatasının spikeri vəzifəsində çalışan amerikalı siyasətçidir. O, 1987-ci ildən Kaliforniyanın Konqresdə nümayəndəsi kimi fəaliyyət göstərir. Demokratlar Partiyasının üzvü olan Pelosi ABŞ Nümayəndələr Palatasının spikeri vəzifəsini icra edən yeganə qadındır.

Səfərə gəldikdə, bu, regional xarakter daşımır, yeni Cənubi Qafqaza heç bir aidiyyəti yoxdur. Pelosi Almaniyadan birbaşa Ermənistana uçur. Digər dövlətlərə səfərlər planlaşdırılmır. Yəni nə erməni-türk, nə də erməni-azərbaycanlı gündəmi yoxdur. Amerika mətbuatında məlumat var ki, Pelosi partiyasının noyabrda keçiriləcək seçkilərdə qalib gəlməsinə kömək edəcək, sonra başqa işə keçəcək. Səfir təyin olunacağı bildirilir. Əlbəttə, noyabrda ABŞ-da seçkilər var və demokratların erməni səslərinə ehtiyacı var. Lakin nəzərə almaq lazımdır ki, Pelosi Konqresdəki ermənilərin ən yaxşı dostlarından biridir və onun Ermənistana səfərinin də şəxsi motivi var.

Nüfuzlu siyasətçi Ermənistana səfər etmək qərarına gələndə Azərbaycanla sərhəddə hadisələr baş verməmişdi. O, səfərini asanlıqla ləğv edə, ya təxirə sala, ya da paritet saxlamaq üçün Bakıya da səfər edə bilərdi. Bu yaxınlarda ABŞ-da ərinin adı ilə bağlı qalmaqal da yaşanmışdı. Lakin müharibəyə və daxili siyasi proseslərə baxmayaraq, Pelosi Ermənistana səfər etmək qərarına gəldi. Ermənilər də bu vəziyyətdən öz xeyirlərinə istifadə etmək niyyətindədirlər. Yeri gəlmişkən, onun səfərindən xəbər tutan kimi ermənilər Pelosinin Qarabağa səfərini təşkil etməyi də düşünürlər. Amma o bu təklifi qəbul edəcəkmi?



# BMT yenə “sinifdə qaldı”

***“İtdən soruşurlar ki, niyə hürürsən, deyir, qorxuduram, bəs quyruğun niyə titrəyir, deyir özüm qorxuram". Bunu Ermənistan və ermənilər barəsində də demək olar. Təxribat törədirlər, cavabını alanda isə haray-həşir salırlar, aləmə car çəkirlər. Centayabrın 12-dən 13-nə keçən gecə Ermənistan-Azərbaycan sərhədində baş verən hadisələr kimi. İrəvanda təxribat planı hazırlanır, erməni diversiya qrupları əvvəlki taktika ilə, sakitlikdən istifadə edərək Azərbaycanın sərhəddəki postları arasındakı ərazilərə minaların basdırması üçün əməliyyat başlanır. Hərbçilərimizin ayıqlığı nəticəsində diversantların yerləri bəlli olur və atışma başlayır.***



Toqquşma o qədər güclü olur ki, hətta işə artileriya da qarışır. Erməni hərbçilərin təxribatı onlara baha başa gəlir. Düşmən həm canlı qüvvə, həm də texnika sarıdan böyük itkilər verir. Təəssüf ki, Azərbaycan hərbçiləri arasında da şəhid olanlar olur. Sonra

Sonrakı hadisələrin gedişindən bəlli olur ki, baş verən hadisələr Ermənistanın hərbu-siyasi rəhbərliyi tərəfindən hazırlanıb. Xronologiya belədir ki, təxribatın başlamasından yarım saat keçməmiş Ermənistanın baş naziri Paşinyan Fransa prezidentinə, ABŞ-ın dövlət katibinə, Rusiyanın dövlət başçısına, Avropa İttifaqının prezidentinə, beynəlxalq təşkilatlara, KTMT-yə əvvəlcədən hazırlanmış müraciətlərini göndərir, hay-haray salır ki, Azərbaycan bizi qırır, gəlin. Sonrası olaylar da təəssüfedicidir. Ermənistanın yalanlarına kos-koca Fransa, dünya siyasətində ”quşu gözündən vuran” ABŞ, hadisələrin ta başından regionda olan Rusiya, dünyanın altını və üstünü bilən ”qoca Avropa”, o cümlədən ermənilərin azı dişindəki çürükdən xəbəri olan KTMT ölkələri bu yalanlara reaksiya verir, bəziləri hətta Azərbaycanı ittiham etməyə qalxırlar. BMT Təhlükəsizlik Şurasının (TŞ) 5 daimi üzvündən biri olan Fransa TŞ-nin fövqəladə iclasının keçirməsini tələb edir. Yoxsa, tarix yenidən təkrarlanır? Yadınızdadırsa 44 günlük müharibə zamanı da bəzi nankorlar səbəbindən az qala Azərbaycana qarşı sanksiya paketi tətbiq edəcəkdilər

Bəli, bu gün BMT TŞ-nin fövqəladı iclasının keçiriləcəyi anonsu verilib. Hər halda fövqəladə iclas tərəflərə tövsiyyələr vermək üçün toplanmır. Bəzi şər qüvvələr fürsət bilib Azərbaycana, haqlı tərəfə qarşı qətnamələr çıxara bilərlər. Düzdür, bəzi siyasətçilər BMT TŞ-nin 4 qətnaməsinin hələ də həyata keçmədiyini xatırlayırlar, amma ikili standartların olduğunu da yada salsaq pis olmaz.

Sentyavrın 14-də BMT TŞ-nin qapalı iclası keçirilir, növbəti gün isə açıq müzakirələr başlayır. İclasa TŞ-nin sədri olan Fransa moderatorluq edir. Təhlükəsizlik Şurasının dimi və qeyri-daimi üzvlərinin çıxışları başlayır və məlum olur ki, həmin dövlətlərin daimi nümayəndələri hadisəyə təxminən eyni istiqamətdən yanaşır və bununla da sanki işlərini bitmiş hesab edirlər. Müzakirələr müharibəyə çevrilən münaqişənin səbəblərinə aydınlıq gətirmək, 12-dən 13-nə keçə gecə nələrin və kimin günahı ucbatından baş verdiyini araşdırmaq əvəzinə məsələyə çox səthi yanaşıldı, son hadisələrin regionda əlavə gərginlik yaradacağı xəbərdarlığı edildi. Yenə əvvəlki yanaşma, əvvəlki loyal münasibət, məsələni həll etmək əvəzinə onu dondurmaq istəyi. Bu müzakirələr bir daha BMT adlı beynəlxalq təşkilatın dişsiz olduğunu bird aha təsdiq etdi, eyni zamanda bizə dost, yaxud düşmən olan ölkələri də üzə çıxardı. Ermənistanın şikayətinə can-başla reaksiya verən, onu BMT TŞ-nin müzakirəsinə çıxaran və bunun üçün öz veto hüququndan istifadə edərək fövqəladə iclas çağıran Fransa ilə bərabər Hindistanın da iç üzünü gördük. Bu ölkənin BMT-dəki daimi nümayəndəsi Ruchira Kamboj çıxışında bəlkə də Ermənistan məruzəçisindən daha sərt danışdı, Azərbaycanı təcavüzkar adlandırdı. Sübutsuz, dəlilsiz, sadəcə şikayətçi ölkənin yalanlarına istinad edərək başqa bir ölkəni işğalda, təcavüzdə ittiham etmək diplomatik tərbiyyəsizlikdən, qərəzdən başqa bir şey deyil. Yəqin ki, Azərbaycan tərəfi bu ”qiymət”i heç vaxt diqqətdən kənar qoymayacaq.

Məntiqi sual yaranır, Hindistan Ermənistan-Azərbaycan münaqişəsinin tarixini, səbəblərinin bilmədiyi halda niyə bu yanaşma sərgiləsin, yaxud, tutaq ki, münaqişə barədə məlumatı var, onda Azərbaycana belə düşmən münasibətin arxasında nə dayana bilər? Bəlkə Pakistanla Azərbaycanın qardaşlığı Dehlini özündən çıxarıb? Bu, mümkündürmü? Əcəba, bizim Hindistan qarşısında öhdəliyimizmi var ki, kiminlə dost, kiminlə düşmən olduğumuzu induslarla razılaşdıraq? Bunlar özlərini nə sanırlar, yoxsa Bu ”yoxsa”lar, ”bəlkə”lər çox ola bilər. Amma bir hadisə olmamalı idi, amma oldu. Hindistan da ifşa olundu, daha doğrusu özünü ifşa etdi. Ermənistanın işğalçı siyasətinə şərik çıxdı. Yəqin ki, Ermənistanda indus mahnılarının bundan snra tez-tez eşidəcəyik. Bu ölkənin xaricə ixrac edəcəyi başqa nəyi var ki?..

BMT də öz aurasında qaldı, 1992-ci ildə qəbul etdiyi 4 qətnamənin işlək mexanizmə çevrilməsini təmin etmədiyi, yaxud edə bilmədiyi yaddan çıxmayıb. 4 dişsiz qətnamədən sonra BMT-nin Fransanın təhriki ilə toplanması və müzakirə aparması, üstəlik tərəflərin başına guya ağıl qoyması gülünc deyildimi? Bunlar kimi aldadırlar? Məgər bilmirlərmi BMT-nin əvvəlki gücü qalmayıb, tükənib? Səbəblərini də bilmirlər? Əlbəttə bilirlər, TŞ-nin 5 daimi üzvlərinin ”veto” əməllərindən də, ədalətin axırına çıxdıqlarından da, həm qərəzli, həm dişsiz qətnamələr qəbul etmələrindən də dünyanın xəbəri var. Onu da bilirik ki, bu qurum TŞ daimi üzvlərinin əlində oyuncağa çevrilib, yalnız 5 dövlətin çaldığı havaya oynayır. Azərbaycanın erməni silahlı qüvvələrinin təcavüzü barədə BMT-yə şikayətinə dərhal reaksiya verildiyi, təcili iclas çağırdığı bəlkə kiminsə yadındadır? Əziyyət çəkib tarixin səhifələrini vərəqləməyin, belə bir şey olmayıb. Bir sözlə, BMT 30 il bundan əvvəl olduğu kimi, bu dəfə də sinifdə qaldı. Çünki gündəliyindəki ”2”lər onun hansı səviyyədə olduğundan xəbər verir.

Ermənistan tərəfi ümid edirdi ki, KTMT-yə üzv dövlətlər öhdəliklərə uyğun olaraq Qazaxıstanda yanvar iğtişaşları zamanı olduğu kimi, ona da lazımi yardımı göstərəcəklər. Halbuki baş nazir Paşinyan da bildirib ki, Ermənistanla Rusiya arasında hərbi yardım barədə razılaşma var. Ermənistanın ehtimallarına rəğmən nə Rusiya, nə də KTMT ölkələri bölgəyə ordu yeritdilər. Yalnız, KTMT-nin faktaraşdırıcı komissiyası İrəvana gəlib, söz veriblər ki, hadisə yerinə də baş çəkəcəklər.

Fransada isə bir qrup deputat Ermənistana hərbi yardım göstərilməsi xahişi ilə hökumətə müraciət hazırlayıb. ”Le Figaro” yazır ki, Makron bu münaqişənin və ondan irəli gələn bütün məsələlərin müstəsna olaraq sülh yolu ilə həllinə kömək etmək üçün Azərbaycan prezidenti İlham Əliyevlə danışıb. Amerika Birləşmiş Ştatları baş verənlərlə bağlı narahatlığını ifadə edib.

Eyni zamanda, Bakı və İrəvanla sıx əlaqədə olan Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Tvitter hesabında yazıb ki, gərginliklə bağlı Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanla əlaqə saxlayıb. Vurğulayıb ki, Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaardan ”daha da gərginliyin qarşısını almaq üçün” Bakı və İrəvana səfər etməyi xahiş edib. Bu arada Azərbaycan prezidenti İlham Əliyev Ermənistanla sərhəddə hazırda mövcud olan bütün məqsədlərə nail olunduğunu bəyan edib.

Ermənistanın Azərbaycanla yeni münaqişəyə başlaması sərfəli deyil. Çünki Azərbaycan texnologiya sahəsində ciddi üstünlüyə malikdir. Ermənistanın əsas müttəfiqi Rusiya isə Ukrayna münaqişəsinə cəlb edilib. Əvvəllər Ermənistan-Azərbaycan münaqişəsindən hər vəchlə uzaqlaşan, bunun üçün müxtəlif səbəblər tapan KTMT-yə də böyük ümidlər yoxdur. Bundan əlavə, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı KTMT-nin özündə heç vaxt yekdillik olmayıb. Məsələn, KTMT-nin üzvü olan Belarus Azərbaycana intensiv şəkildə əlaqədədir. Qazaxıstan və Qırğızıstan üçün Azərbaycanın da daxil olduğu Türk Birliyi KTMT-dən daha önəmlidir. Ermənistan yardım üçün Moskvaya üz tutandan sonra Gümrü şəhərində yerləşən 102-ci hərbi bazada döyüş hazırlığı elan edilib. Ancaq indiyə qədər, bir hərəkətlilik yoxdur.

Azərbaycanlı politoloqlar baş verənlərlə bağlı üç versiya irəli sürürlər. Birinci, KTMT-ni münaqişəyə cəlb etmək və ardınca bütün Ermənistan-Azərbaycan sərhədi boyunca rus ”sülhməramlılarını” yerləşdirmək üçün sərhəddə erməni qüvvələri tərəfindən təxribatlar törətmək. İkincisi, avqustun 31-də Brüsseldə keçirilən görüşdə Nikol Paşinyan İlham Əliyevə nəsə söz verə və Vladimir Putinlə görüşdən sonra baş nazir fikrini dəyişə bilərdi. Üçüncü, baş verənlər Ermənistan cəmiyyətini Azərbaycanla sülh müqaviləsinin imzalanmasına hazırlamaq üçün razılaşdırılmış planın bir hissəsi ola bilər.

Ermənistanın ”Vətəndaş müqaviləsi” fraksiyasının üzvü Vigen Xaçatryan Paşinyanın iştirakı ilə parlamentin iclasında bildirib ki, son hadisələr onlar üçün təəccüblü olmayıb: ”Paşinyan komanda üzvlərinə sülh müqaviləsinin bağlanmasının yaxın gələcəyin işi olmadığını deyib. Baş nazir faktiki olaraq ”Vətəndaş Müqaviləsi” blokunun üzvlərinə Azərbaycanın dəhliz əldə etmək üçün hər şeyi edəcəyini söylədi, sonra əlavə etdi ki, onların vəzifəsi bu vəziyyəti ən azı 2 il uzatmaq, Azərbaycana iqtisadi və hərbi cəhətdən çatmaqdır. Ordunu yenidən silahlandıracaq və problemin hərbi yolla həllinə imkan verməyəcək. Əslində, müharibə başa çatdıqdan 2 il sonra Paşinyan anladı ki, ordunun saxlanması xərclərini azaltmaq yox, yenidən silahlandırmaq lazımdır”. Bəli, Ermənistan rəhbərliyi nə edəcəyini bilməsə də, gücünün yetərli olmadığını bilir. Amma iddiaları, maksimalistliyi Ermənistanın yanlış addımlar atmağa zorlayır. Bu yanaşmanın fəlsəfəsi də itin hürmə səbəbinə çox yaxındır. Ay erməni, kimə və niyə hürürsən?

**V.VƏLİYEV**



# Aqrar sektorun sığortalanmasına niyə maraq göstərilmir?

Bu sahədə fəaliyyət göstərən mütəxəssislər dünyada mövcud olan aqrar sığorta modellərini araşdıraraq mütərəqqi kənd təsərrüfatı sığortası sistemi olan ABŞ, Kanada, İspaniya, Türkiyə, İsrailin təcrübələrini öyrənir. Ölkələrin kənd təsərrüfatı mütəxəssislərin görüş və səfərləri, əldə edilmiş razılıqlar, təcrübə mübadilələri bu sahədə mövcud sistemləri dərinliklərə yiyələnməyə imkan verir. Həmin modellərin üstün və zəif cəhətləri araşdırılaraq, Azərbaycan üçün dövlət-özəl tərəfdaşlığını əsas tutan model hazırlanıb.

Qanun Kənd təsərrüfatı sığortası fəaliyyətinin əsaslarının müəyyən edilməsinə, Aqrar Sığorta Fondunun fəaliyyətə başlamasına, dövlət-özəl tərəfdaşlığın təmin edilməsinə, kənd təsərrüfatı sığortasının qabaqcıl təcrübə əsasında həyata keçirilməsinə, kənd təsərrüfatı sığortası üzrə ekspertlər institutunun yaradılmasına, kənd təsərrüfatı sığortası üzrə statistik məlumatları özündə cəmləşdirən elektron informasiya sisteminin qurulmasına, kənd təsərrüfatı sığortası mexanizmində mütərəqqi təcrübəyə malik olan ölkələrin təcrübəsinin daha da yaxından öyrənilməsi və ölkədə olan kənd təsərrüfatı risklərinin təkrar sığortalanması üçün beynəlxalq əməkdaşlığın genişləndirilməsinə, stabil və təhlükəsiz kənd təsərrüfatı sığortası mexanizminin formalaşması üçün münbit zəminin formalaşmasına xidmət edəcək kifayət qədər tədbirlər görülür.

Kənd təsərrüfatı məhsulu sığorta büdcəsi baxımından nümunə götürə biləcəyimiz qardaş Türkiyə Cümhuriyyəti 478 milyon avro ilə, Amerika, Çin, Hindistan, Kanada, Yaponiya və İspaniyadan sonra yeddinci yerdədir. ABŞ-da kənd təsərrüfatı məhsullarının sığorta haqqı 9,3 milyard avro, Çində 5,4 milyard avro, Hindistanda 2,8 milyard avro və Kanadada 1,3 milyard avrodur.

Kənd təsərrüfatı sığortası obyektlərinin siyahısının genişləndirilməsi ilə bağlı hökumətə bir çox təkliflər verilir. Bu təkliflərə əsasən, siyahıda kənd təsərrüfatı sığortası obyektlərinin sayının genişləndiriləcəyi gözlənilir. İlk növbədə, bunlar, demək olar ki, hamısı meyvə, bostan və digər bitkilərdir. Sığortalanmalı kənd təsərrüfatı heyvanlarının siyahısı da nəzərdə tutulub. Kənd təsərrüfatı sığortası mexanizmi daim inkişaf edəcək və müvafiq olaraq xidmətlərin həcmi də genişlənəcəkdir. Sığorta və dövlət dəstəyi olmadan kənd təsərrüfatının inkişafı mümkün deyil.

### Sığorta anlayışının mahiyyəti nədir?

**İqtisadçı, ekspert Eldəniz Əmirov** SİA-ya açıqlamasında bu barədə danışıb. Sığorta anlayışı qarşıdakı müddətdə baş verə biləcək hər hansı xoşagəlməz hadisələrin mənfi fəsadlarının azaldılmasına yönəlmiş bir davranışdır. Kənd təsərrüfatı sahəsindəki sığorta isə bütün dünyada sığorta sektorunda ən təzadlı, ən problemli və ən riskli hissəsi kimi qiymətləndirilir.



Çünki kənd təsərrüfatında xoşagəlməz hadisələrin risklərin baş verməə ehtimalı çox böyükdür. Risklər artdıqca sığorta məsələsində tərəddüdlər genişlənir. Amma kənd təsərrüfatında arzuolunmaz halların - daşqının, selin, yağıntının, quraqlığın ziyanvericilərin dağıdıcı fəaliyyətin baş vermə ehtimalı çox olduğundan zərəri də çox olması ehtimalı böyükdür. Azərbaycanda aqrotexniki qulluğun səviyyəsi dünya standartlarına baxanda kifayət qədər geridə qalıb, bu baxımdan da bu sahə daha çox həssas sayılır. Sığorta təşkilatların bilavasitə kənd təsərrüfatı məhsullarının sığortalanmasına o qədər də maraq göstərmirlər. Çünki risklər böyük olduğundan, ziyanın dəymə ehtimalı da çox böyük olur.

Bu kimi problemlərin həllinə yönəlik aqrar sığorta haqqında qanun qəbul olundu və Aqrar Sığorta Fondu yaradıldı. Fond üzərindən bilavasitə aqrar sahədə sığorta sistemi təkmilləşdirməyə hədəf olaraq götürülmüşdür. Fermerlər üçün sığorta sisteminin mahiyyətini anlamaq üçün bir "kalkulyator" yaradılmışdır. 20-yə yaxın bitkilərin sığortalanması fond tərəfindən sığortalanacaqdır. Amma görünən odur ki, Azərbaycanda aqrar sahədə sığortalanma proseslərində ciddi problemlər var. Bunun da kökündə duran səbəblər çoxdur. Birincisi fermerlərin bu sistem barəsində məlumatsızlığıdır. İkinci səbəb mövcud aqrotexniki qulluq səviyyəsinin və yaradılmış fermerlərin özünün yaratdığı şəraitin daha çox risk faktorlarının özündə daşımasıdır ki, bu sonradan sığorta hadisəsinin baş verməsinə gətirib çıxarır. Digər bir məsələ suvarma sistemlərinin normal tətbiq edilməməsidir. Su ehtiyatlarının kifayət qədər mövcud olmaması, toxum növlərinin qənaətbəxş olmaması, qulluğun lazımi səviyyədə aparılmaması kimi hallar ciddi risk faktorları yaradır. Aqrar sahədə sığorta sistemini təkmilləşdirmək istəyiriksə mütləq şəkildə aqrotexniki qulluğun səviyyəsini artırmalıyıq. Kənd təsərrüfatına dünyanın ən qabaqcıl ölkələrində olan aqrotexniki xidməti, aqrotexniki qulluğu, aqrotexniki vasitələri daşımalıyıq ki, biz bunun nəticəsində aqrar sığorta sektorunda canlanma görə bilək. Bu gün hər hansı bir fəaliyyətdə risk çoxdursa bu sahənin sığortalanması maraqsız olur həmçinin tərəflərin iqtisadi göstəriciləri səmərəsiz olur.

"Aqrar sığorta 2020-ci ilin fevral ayında fəaliyyət göstərməyə başlamışdır. Lakin pandemiya səbəbindən fondun fəaliyyəti 2020-ci ilin noyabrında başlamışdır. Aktiv olaraq real iş 2021-ci ilə təsadüf etdi və uyğun işlər görülmüşdür". Bu sözləri **Aqrar Sığorta Fondunun İdarə Heyətinin sədri Fuad Sadıqov** deyib.

Birinci il olduğuna baxmayaraq ölkədə taxıl istehsalı ilə məşğul olan vətəndaşlar və lahiyələr bir miyolana yaxın taxılın 30 faizini sığortaladıq.

Hazırda Azərbaycanda qurulmuş mexanizmin ilk nəticələri göstərir ki, ölkədə bu xidmətlərə ehtiyac var. Ötən il 2020-ci ilə nisbətən ölkədə aqrar sığorta üzrə sığorta haqlarında 400 faiz artım olub. Bu, yaxşı bir göstəricidir. Növbəti dövrlərdə Azərbaycanda sistemin daha da effektiv və dayanıqlı çalışması, fermeryönümlü olması istiqamətində fikir mübadilələri aparılır.



Biz Türkiyə Respublikası ilə birlikdə dövlət-özəl sektor əməkdaşlığı üzərində qurulan və hovuz sistemi prinsipi ilə çalışan aqrar sığorta mexanizminin digər türkdilli dövlətlərdə tətbiq edilməsi barədə düşünürük. Artıq Türkiyənin Özbəkistan Respublikası ilə aqrar sığorta sahəsində müəyyən razılaşmaları əldə olunub. Həmin razılaşma əsasında Azərbaycanda tətbiq edilən modelin eynisinin Özbəkistanda yaradılması üzərində müzakirələr gedir.

Ötən il 2020-ci ilə nisbətdə sığorta ödənişlərində də müəyyən dəyişiklik var. Lakin ötən il toplanan sığorta haqlarının ödənişlərinin verilməsi bu ilə təsadüf edir. Çünki əsas əkin mövsümü ilin sonuna düşür. Aqrar Sığorta Fondunun sığorta haqları üzrə topladığı, 6 milyon manatın 5,5 milyon manatı ötən ilin dekabr ayında toplanıb. İnsanlar əkin sahələrinə toxumu noyabr-dekabr aylarında səpir, lakin məhsulun bitməsi fevral-mart aylarına təsadüf edir. Ona görə də biz ötən il yığdığımız sığorta haqları qarşısında nə qədər ödəniş etdiyimizi bu ilin sonlarında deyə bilərik.



Hazırda aqrar sığorta vasitəsilə bir çox bitki növünü, kənd təsərrüfatı heyvanlarından isə südlük inəkləri sığortalamaq mümkündür. Yeri gəlmişkən, qarşıdakı aylarda bu siyahı həm bitkilər, həm də heyvanlar üzrə genişlənəcək. Sığorta tarifləri və sığorta haqlarına gəlincə, Aqrar Sığorta Fondu bu barədə daim ictimaiyyəti məlumatlandırır. Heyvanların sığortalanması üçün tariflər 6,1%-9,5% arasında dəyişir. Sığorta haqqının yarısını da dövlət ödəyir. Bu hesabla məsələn, qiyməti 1000 manat olan qeyri-cins heyvanın sığortalanması üçün sığorta haqqı 60 manatdır. Bunun yarısını, yəni 30 manatını fermerimizin yerinə dövlət, qalan 30 manatını fermer özü ödəyir. Bəs hadisə baş verdikdə nə olur? Fermer dərhal Fonda məlumat verir - bu şərtdir. Biz müstəqil ekspertləri hadisə yerinə göndəririk, onlar sığorta hadisəsi harada baş veribsə, orada hadisəni qiymətləndirirlər, hadisənin özünü, səbəbini, dəyən zərəri müəyyən edirlər və rəsmi qaydada fonda təqdim edirlər. Bundan sonra Fond yeddi iş günü ərzində bütün sənədləri emal edib, hazırlayıb sığorta ödənişini həyata keçirir. Yəni, istənilən fermer əkin sahəsini və heyvanlarını sığortalayıb, hadisə baş verəndə ödənişini ala bilər. Bir şərtlə ki, bu sahə və heyvanlar elektron sistemdə qeydiyyatdan keçmiş olsun.

Artıq bitkilərin, əkin sahələrinin 96-97%-nə xidmət göstəririk. 2020-ci ilə qədər bu yox idi. 2020-ci ildə 14 bitkinin sığortasına başladıq. İndi sığortalanan bitkilərin sayı 41-ə kimi artırılıb. Bu isə o deməkdir ki, Azərbaycanda əkilib-becərilən məhsulların 96%-ni sığortalamaq mümkündür. Məsələn, əvvəl soya istehsalçısı müraciət etsə də, məhsulunu sığortalaya bilmirdi. Amma artıq məhsulunu sığortalamaq imkanı yaranıb. İndi əsas hədəfimiz ölkədə becərilən bitkilərin sığortasını 100% həddinə çatdırmaqdır. Bundan əlavə, növbəti illərdə arıçılıq və quşçuluq təsərrüfatlarının sığortanmasına da başlayacağıq.

***Havar Şəfiyeva***

## Müdafiə Nazirliyindən sosial şəbəkələrdə paylaşılan videogörüntülərlə bağlı AÇIQLAMA



Müdafiə Nazirliyi sosial şəbəkələrdə paylaşılan videogörüntülərlə bağlı açıqlama verib. Nazirlikdən SİA-ya daxil olan açıqlamada deyilir: "Sosial şəbəkələrdə məlum foto və videogörüntülərin Müdafiə Nazirliyi ilə heç bir əlaqəsi olmadığını qətiyyətlə bildiririk. Müdafiə Nazirliyi yalnız qarşıya qoyulmuş döyüş tapşırıqlarının icrası, eləcə də ölkəmizin ərazi bütövlüyü və suverenliyinin qorunub saxlanılması üzrə müvafiq vəzifələri yerinə yetirən dövlət qurumudur.

Bildiririk ki, Müdafiə Nazirliyi şəhidlərimizə və onların ailə üzvlərinə daim xüsusi həssaslıqla yanaşır. Hesab edirik ki, şəhidlərimizlə bağlı sosial şəbəkələrdə xoşagəlməz müzakirələrin aparılması müzəffər Ordumuzun nüfuzuna xələl gətirir və yolverilməzdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin!"

Qeyd edək ki, sosial şəbəkələrdə şəhid Səbuhi Əhmədovun qardaşı Sənan Əhmədovun müraciəti yayılıb.

# Hindistanda "hindus faşizmi" aktları - təcavüzkar kimdir?





*Dehli hər zaman Ermənistanın işğalçılıq siyasətinə bu və ya digər şəkillərdə dəstək göstərməklə Azərbaycan əleyhinə verilən qərarlara "ok" deyib!*





BMT-nin Təhlükəsizlik Şurasının son iclasında Hindistan Azərbaycanı "təcavüzkar" ölkə kimi gördüyünü ifadə etdi və buna "əsas" kimi sentyabrın 12-13-də Azərbaycanla Ermənistanın delimitasiya və demarkasiya olunmamış, yəni dəqiqləşdirilməmiş sərhəd ərazilərində erməni tərəfinin təxribatlarına və diversiya cəhdlərinə qarşı qətiyyətli cavabın verilməsi göstərildi. Təsəvvürünüzə gətirin, düşmən qapınızı döyür və siz də qapı döyənin düşmən olduğunu bilə-bilə ona heç nə demirsiniz və o da qapınızdan içəri keçməklə həyatınızı təhlükə altında qoyur Azərbaycan isə, öz növbəsində, yağı düşmənə qarşı sarsıdıcı zərbə endirdikdə nədənsə və dərhal "təcavüzkara" çevrilir!

Güclü və qüdrətli Azərbaycanın müsəlman ölkəsi olması da Hindistanın anti-Azərbaycan maraqlarının get-gedə yüksəlməsinə öz təsirlərini göstərir

Və hazırda bu, bizim dövləti "təcavüzkar" adlandıran həmin Hindistandır ki, öz daxilində digər dinlərin, konfensiyaların və millətlərin, xüsusilə, müsəlmanların inanclarına, etiqadlarına qarşı amansız, qəddar siyasət tətbiq edir. O da kimsəyə sirr deyil ki, Hindistan bütpərəst-faşizm və islamofob ideologiyası fonunda ölkə ərazisində yaşayan bütün müsəlmanların hüquq və haqlarını tapdalayır, xüsusilə, Kəşmirdə ardıcıl və qanlı repressiyalara əl atır. Çox yəqindir ki, güclü və qüdrətli Azərbaycanın müsəlman ölkəsi olması da Hindistanın anti-Azərbaycan maraqlarının get-gedə yüksəlməsinə öz təsirlərini göstərir.

Və bu gün Azərbaycanın dost və qardaş Pakistanla əlaqələrinin ən yüksək, hətta daha çox yaxın münasibətlərdə qurması da təcavüzkar Dehlini, sözün əsl mənasında, qıcıqlandırır. Əgər Pakistan 44 günlük müharibədə mənəvi cəhətdən daim Azərbaycanın yanında olduğunu bəyan edirdisə, bu gün də həmin bəyanatlarını səsləndirirsə, Hindistan dərhal bundan narahatlıq keçirir, halbuki narahatlığına da heç bir əsas yoxdur.

Əbəs deyil ki, Prezident İlham Əliyev Hindistanda müsəlmanların diskriminasiyalara uğradıldığını, təqiblərə məruz qaldıqlarını və bunun yolverilməz olduğunu bəyan etmişdi

Azərbaycan əsla və heç vaxt başqa dövlətlərin ərazilərinin bütövlüyünə Hindistandan fərqli olaraq ədalətsiz nəzərlərlə baxmır. Lakin paralel olaraq olanları ifadə edir. Məsələn, Dehlinin müsəlmanlara qarşı nümayiş etdirdiyi qanlı siyasətini pisləyir. Əbəs deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev də bu mövzuda fikirlərini irəli sürərək həmin ölkədə müsəlmanların diskriminasiyalara uğradıldığını, təqiblərə məruz qaldıqlarını və bunun yolverilməz olduğunu bəyan etmişdi.

Beləliklə, rəsmi Dehlinin Ermənistana az qala bütün sahələrdə tam dəstək verməsi də artıq gerçək məsələdir. İstər 44 günlük müharibəyə qədər, istərsə də sonra Ermənistana radar sistemlərinin və s. hərbi təchizatların verilməsi ilə bağlı önə sürülən qərarlar da, məhz bu xüsusdandır. Gerçəkliyə və məntiqə qalanda bundan da təəccüb etməyə dəyməz.

Məsələn, Hindistandakı hakim dairələrin kütlənin beyini hindutva ilə zəhərlədiklərini nəzərə alsaq, rəsmi Dehlinin düşmən hesab etdiyi türk və müsəlman dünyasına qarşı aqressiv düşüncələrinin haradan qaynaqlandığını tam şəkildə müəyyən edə bilərik. Yəni fakt budur ki, hazırda Hindistanda dövlət səviyyəsində (!) "hindus faşizmi" kimi tanınan siyasi mexanizm həyata keçirilməkdədir. Belə ki, dövlət qurumları və güc strukturları hindutva tərəfdarları olan ekstremist dəstələri və silahlıları qeyri-rəsmi şəkildə, dolayısı ilə dəstəkləyir, maliyyələr ayırır, müsəlmanlara qarşı hücumlara göz yumur və əsla heç bir tədbirlər görmür. Bunun yerinə isə ölkədə hindus faşizminin, yəni hindutvanın yayılmasının təhlükəli olduğunu deyən hüquq müdafiəçiləri və s. ictimai xadimlər isə terrorlara, təhdidlərə, linçlənmələrə məruz qalırlar.

Yeri gəlmişkən, bu ilin iyunun ayının 9-da Hindistanın Azərbaycandakı səfiri Bavitlung Vanlalvavna ölkəsində islam dininin təhqiri ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinə çağırıldı. Səbəb Hindistanın hakim partiyası rəsmilərinin islam dini və Məhəmməd Peyğəmbərin əleyhinə təhqiramiz ifadələr işlətməsi olub. Nazirlikdə belə münasibətin qəbuledilməz olduğu bildirilib. Həmşinin, Hindistan rəsmilərinin sərgilədiyi islamofob mövqeyin bütün dünya müsəlmanlarının hissiyatına toxunduğu qeyd edilib və Azərbaycanın bu davranışı qınaması Hindistan səfirinin diqqətinə çatdırılıb.

Belə halların müxtəlif dinlərdən olan insanların sülh şəraitində birgə yaşayışına xələl gətirdiyi vurğulanıb. Qeyd olunub ki, sözügedən rəsmilərə qarşı Hindistan hökuməti tərəfindən sərt tədbirlərin görülməsi gözlənilir.

Elə məlum Qərb ölkələri də var ki, onlar Azərbaycana qarşı məhz Hindistanın baxdığı nəzərlərlə baxırlar, ittiham edirlər və s.

Və maraqlısı da budur ki, sözügedən antihumanizm və vəhşiliklər istənilən başqa ölkədə olsaydı, kollektiv Qərb dərhal bəyanatlar istehsalına başlayar, sanksiyalar tətbiq edər, cəza mexanizmlərini işə salardı. Bu baxımdan, hadisələr Hindistanda baş verdiyi üçün "demokratik və mütərəqqi" Qərb nədənsə susur, özünü görməməzliyə, korluğa və lallığa qoyur. Əksinə, elə məlum Qərb ölkələri də var ki, onlar Azərbaycana qarşı məhz Hindistanın baxdığı nəzərlərlə baxırlar, ittiham edirlər və s.

Bütün bunlardan sonra artıq nəyin-necə və kimin-kim olması da tam şəffaf şəkildə bəlli olmağa başlayır. Artıq hər şey və hər kəs öz adı ilə çağırılmalıdır. Fakt budur ki, Hindistan özünün hindus-şovinist rəhbərliyi başda olmaqla aparteid dövlət olması ilə yanaşı, həm də müsəlmanları təqib-təhdid edən xunta idarəçiliyi təsirini bağışlamaqdadır. Bu baxımdan, belə bir ölkə ilə pozitiv əməkdaşlıq qurmaq da, əslində, böyük suallar doğurmaqdadır. Əgər Hindistan Azərbaycanı əsassız və sübutsuz olaraq "təcavüzkar ölkə" qismində görürsə, onda Bakı da Dehliyə layiq olduğu yerini göstərməlidir!

***Rövşən RƏSULOV***

***P.S. Yəqin ki, paytaxt sakinləri tez-tez, hətta ildə iki dəfə (!) Bakıda Hindistan müxtəlif sərgilərinin və satış mərkəzlərinin təşkilini müşahidə edir, bu tədbirlərə qatılaraq həmin ölkənin bazarına necə deyərlər, pul-para buraxırlar. Ümumiyyətlə, Azərbaycan daim Hindistana bütün müsbət cəhətlərdən açıq olub. Üstəlik, əsrlər boyu ölkələr arasında tarixi bağlar da mövcuddur. Amma çox təəssüf ki, Hindistan bütün dəyərləri heçə saymaqla, öz növbəsində, müxtəlif nüfuzlu təşkilatlarda ermənilərin işğalçılıq, təcavüzkarçılıq siyasətlərinə dəstək göstərmək məqsədi ilə Azərbaycana qarşı haqsız, ədalətsiz mövqe nümayiş etdirir və hesab edir ki, onun bu addımları cavabsız qalacaq. Amma qalacaqmı..? Təbii ki, əsla!***

SİYASİ RAKURS+ÖZƏL

# “Ermənistanda dövlətçilik ənənəsi yoxdur”

*“Ermənistan dövləti yaranan gündən xülyalar və yalanlar üzərində qurulub". Bu sözləri SİA-ya açıqlamasında deputat Sadiq Qurbanov deyib.*



DEPUTAT MÜNASİBƏT BİLDİRDİ

Onun sözlərinə görə, erməniləri idarə edənlər həmişə öz sözlərinin üzərində durmayan rəhbərlər olub: ” Yaxın tarixə baxsaq, bir daha bu faktların şahidi olarıq. Köçəryan, Sarkisyan və ondan öncəkilərin dövründə də görmək olar. Paşinyan da bu yalan üzərində qurulan siyasəti davam etdirir. Ümumiyyətlə, belə nəticə çıxır ki, ermənilərə etibar etmək olmaz. Ermənistan artıq bilirsiniz ki, 2020-ci ilin noyabrında kapitulyasiya aktına imza atdı. Kapitulyasiyanın mahiyyəti bundan ibarətdir ki, bir tərəf məğlub olduğunu qəbul edir və digər tərəfin şərtləri ilə razılaşır. Məğlub tərəf şərtləri qəbul edərək öhdəlikləri yerinə yetirməyə məcbur olur. Azərbaycan tərəfi 5 şərt irəli sürür. Azərbaycanın irəli sürdüyü bu şərtlər çox humanist şərtlər idi. Bu, regionda sabitliyin əldə edilməsi və hər bir region dövlətinin inkişafına hesablanmış şərtlərdir”.

Deputat sözlərinə əlavə edərək bildirib ki, ermənilər buna baxmayaraq revanşist hərəkətlər etməklə təxribatlar törətməyə cəhd etdilər: ”Amma bu, ermənilərlə yanaşı, eyni zamanda, erməniləri müdafiə edən, qızışdıran və onları hər zaman öz forpostu kimi görmək istəyən dövlətlərdə də bu prosesdə rolu az deyil. Onlar maraqlıdır ki, regionda daima münaqişə olsun və onlar öz maraqlarını bir formada təmin etsinlər. Onlar unudurlar ki, Azərbaycan artıq 1991-1992-ci illərdəki Azərbaycan deyil. Azərbaycan gün keçdikcə daha çox güclənir və qüdrəti artır. Azərbaycan beynəlxalq münasibətlər sistemində öz sözünü deyən dövlətdir. Onlar Azərbaycanı hansısa formada gözdən salmağı planlayırlar. Burada çox nüanslar ola bilər. Məhz niyə Şanxay Əməkdaşlıq təşkilatının sammitinin keçirildiyi ərəfəyədə bu təxribatlar baş verir? Azərbaycan hələ ki, qarşılıqlı sərhədlərin tanınması prosesi baş verməyib. Azərbaycan öz mövqelərini yuxarı çəkərək zirvələri nəzarətə götürüb. Paşinyan üçün erməni xalqının əsgərləri o qədər də maraqlı deyil, yəni ona erməni əsgərlərinin toyuq kimi qırılmasının fərqi yoxdur. Axı bilirsiniz ki, noyabra qədər sülh sazişinin ilkin variantı hazırlanmalıdır. Ermənilər bu prosesi ləngitməyə və vaxt qazanmağa hesablanmış təxribatlardır. Əgər ona imza atarsa, daxildə devrilmək məsələsi Paşinyanı qorxudur. Ermənilər 44 gündə heç bir müqavimət göstərə bilmədilər. Azərbaycan ordusu 44 gündə işğalda olan ərazilərini azad etdi. Ermənilər hesablamışdı ki, iki il ərzində Azərbaycana düşmən olan ölkələrdən silah və hərbi texnika almaqla güclənərək bizi məğlub etməyi düşünürdülər. Lakin Azərbaycanın dəmir yumruğunu unudublar. Azərbaycanda xalq və dövlət birliyini unudublar. Özlərində isə bu olmadığı üçün eyni 44 günlük müharibədəki kimi Paşinyan başqalarına zəng etməklə çarə axtarır. Ermənistanda dövlətçilik ənənəsi yoxdur. Ermənistan daima hansısa qüvvələrə sığınmaqla özlərinə yer tapmağa çalışırlar. Ermənilər başqa dövlətin forpostu olmaqla, başqa dövlətlərə xidmət etməklə özlərinin mövcudluğunu qoruyub saxlayırlar”.






**Qönçə Quliyeva**

# Builki tədris ilindən gözləntilər nələrdir?



*"Azərbaycan artıq təhsil sistemini postpandemiya dövründə hesab etmək olar. Bu ilki təhsil sistemindən kifayət qədər gözləntilərimiz var". Bu fikirləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov bildirib.*

EKSPERT ŞƏRH ETDİ



Onun sözlərinə görə, bildiyiniz kimi 2020-ci ilin martından etibarən pandemiya səbəbindən tədrisin təşkili məsafəli şəkildə təşkil edilirdi və bir çox hallarda biz bunun çətinliklərini gördük: ”Amma bu il 15 sentyabrdan etibarən ali və orta ixtisas təhsil müəsisələrində tədris prosesi başlayacaq. 2021-ci ildə dərslər bilirsiniz ki, 22-29 sentyabrdan başlamışdı. Qeyd edim ki, Azərbaycan azsaylı ölkələrdəndir ki, pandemiya dövründə tədrisi tam olaraq bərpa edir. Biz pandemiyada o qədər də böyük itkilərə məruz qalmadıq. Onlayn rejimdə ortaya çıxan çətinlikləri həll edə bildik. Qeyd edim ki, bu il ölkə üzrə 4432 orta ümumtəhsil məktəbinə 1.6 milyon şagird gedəcək və onların təlim-tərbiyəsi ilə 142 min müəllim məşğul olacaq. Eyni zamanda 51 ali təhsil müəssisələrinə bu il 1-ci kursa 51 minə yaxın tələbə gedəcək. Ümumilikdə Azərbaycanın ali təhsil müəsisələrinin bakalavr və magistratura pilləsində 187 min tələbə təhsil alacaq. Bu Cənubi Qafqazdakı digər ölkələri ilə müqayisədə çox böyük bir rəqəmdir.

Bu il Azərbaycanda ”Şuşa ili”dir və bu tədris prosesində xüsusu əhəmiyyət kəsb edir. Eyni zamanda bu il ali təhsil müəsisələrinə qəbul imtahanlarının fonunda dəyişiklikləri də müşahidə etdik. 2-ci qrupda beynəlxalq münasibətlər və regionşünaslıq 3-cü qrupa keçirildi. Bu ildən gözləntilərimiz çoxdur. Çünki bağçalar yenidən Təhsil Nazirliyinə verildi. Təhsil Nazirliyinin adı dəyişilərkən Elm və Təhsil Nazirliyi adlandırıldı. Bu da öz növbəsində elm və təhsilin birlikdə inkişaf etməsinə səbəb olacaqdır. Xüsusən bağçalarla bağlı böyük gözləntilərimiz var. Uşaq bağçalarında qeydiyyat, işə qəbul və bütün proseslər onlayn şəkildə həyata keçirilir. Bu da Azərbaycan təhsili üçün inqilabi hadisələrdən biridir. Azərbaycan şagirdlərinin beynəlxalq olimpiyadalarda beynəlxalq uğurlarını gözləyirik. Bu il alternativ dərsliklər istifadəyə veriləcək. Təhsil sistemində bu il regional təhsil idarələri yaradılıb. Regional təhsil idarələrinin yerli təhsilin idarə edilməsinə müsbət təsirlərini gözləyirik. Eyni zamanda müəllimlərin işə qəbul imtahanlarına müəyyən redaktə xarakterli dəyişikliklər edilib. Yəni Azərbaycan təhsili dövlət tərəfindən göstərilən diqqət və qayğını öz nəticələrində hiss etdirməlidir. Çünki dövlət büdcəsindən ən çox vəsait ayrılan sahələrdən biridir. Ölkə başçısı tərəfindən mütəmadi olaraq yeni məktəblər tikilir, təmir edilir. Bütün bunların hamısı dövlətin təhsilə göstədiyi diqqət və qayğının bariz nümunəsidir. Biz bu ilki nəticələrin əvvəlki illərin nəticələrindən daha yüksək olmasını gözləyirik”.

**Abutel İlhamqızı**

***Bildiyimiz kimi, sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törədib. Ermənistan silahlı qüvvələrinin diversiya qrupları sutkanın qaranlıq vaxtında ərazinin dağlıq relyefi və mövcud dərə boşluqlarını istifadə edərək müxtəlif istiqamətlərdə Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasını həyata keçirib. SİA mövzu ilə bağlı QHT rəsmiləri arasında sorğu edib.***

# “Ermənilərin ümidləri ölüb"





**“Hüquqi Təhlil və Araşdırmalar” İctimai Birliyinin sədri Ramil İsgəndərli:** ”Sentyabrın 12-də baş vermiş hadisələr bir daha sübut edir ki, Ermənistan 2020-ci il noyabrın 9-da imzalanmış üçtərəfli bəyanatın müddəalarının icrasından boyun qaçırır və götürdüyü öhdəlikləri həyata keçirmək istəmir. Ermənistan nəinki Moskvada, eyni zamanda, Brüsseldə əldə olunmuş razılaşmaları yerinə yetirmək istəyində olmadığını törətdiyi bu təxribatlarla göstərir.

Əgər Ermənistan, həqiqətən də, sülh əldə etmək istəyində olsaydı, indiyədək beynəlxalq aləmdə Azərbaycana qarşı kampaniya aparmazdı, sülh danışıqlarını, kommunikasiyaların açılmasını, regionda təhlükəsizliyin təmin olunması istiqamətində irəli sürülən bütün təşəbbüsləri və atılan addımları sabotaj etməzdi.

Ermənistan rəhbərliyi 44 günlük müharibədən nəticə çıxarmaq əvəzinə, əksinə olaraq, ordusunu bərpa etmək istiqamətində iş aparırdı. Azərbaycanın suveren ərazisi olan Qarabağa hərbçilər və silah göndərirdi.

Laçının təhvil verilməsi Ermənistan hakimiyyətinin daxildə təzyiqləri neytrallaşdırmaq üçün ictimai rəyi əsas problemlərdən yayındırmaq üçün Azərbaycanla sərhəddə təxribat yaratdı. Eynilə bu cür ssenari 2020-ci ilin iyul ayında Tovuz hadisələri zamanı istifadə edilmişdir.

Təbii ki, belə bir vəziyyətdə Azərbaycan öz ərazi bütövlüyü, suverenliyi və təhlükəsizliyini qorumaq məqsədilə növbəti dəfə Ermənistanın hərbi-siyasi təxribatına cavab vermək üçün adekvat addımlar atmaq məcburiyyətində qalıb. BMT Nizamnaməsinin 51-ci maddəsi hər hansı dövlətin beynəlxalq öhdəliklərini yerinə yetirmədiyi və başqa dövlətin ərazisini işğal etmək üçün hərbi qüvvədən istifadə etdiyi hallarda təcavüz qurbanına özünü fərdi və ya kollektiv şəkildə müdafiə etmək hüququ verir. Bu, o deməkdir ki, beynəlxalq hüquq hər bir dövlətin özünümüdafiə haqqını tanıyır.

Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə əsasən, Ermənistanın Azərbaycana qarşı təxribatların qarşısını almaq və ərazilərini qorumaq məqsədilə Azərbaycanln təhlükəsizliyinə təhdid yaradan bütün hərbi təyinatlı obyektləri darmadağın etdi. Çətin ki, Ermənistan bu obyektləri yaxın illərdə bərpa edə.

Azərbaycan beynəlxalq hüquqi baxımdan tam legitim olaraq, yalnız hərbi obyektləri hədəf aldığına görə və Ermənistanda yerləşən mülki obyektlərin heç birinə ziyan vurmadığına görə, kimsə Azərbaycanı BMT-nin Cenevrə Konvensiyaları pozmaqda günahlandıra bilməz.

Ermənistanın xeyli sayda hərbi texnikası, S-300 raketi, 200 nəfərə yaxın canlı qüvvəsi, çoxlu sayda hərbi obyekti və onlarla postu məhv edildi. Bu hadisələr bir daha onu göstərdi ki, Ermənistanın Azərbaycanla münasibətdə davamlı sülhə razılaşmaqdan başqa yolu yoxdur”.



SORĞU

**“Elmi Araşdırmalar” İB sədri Telman Qasımov:** ”Məlumdur ki, sentyabr ayının 13-də Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı aqressiv hücumlara başlamış və Ordumuz tərəfindən layiqincə cavabları verilmişdir. Ermənistanın Azərbaycanla sərhədlərinin Laçın, Kəlbəcər və Zəngilan istiqamətində qurduğu bütün hərbi təyinatlı obyektlər ordumuz tərəfindən darmadağın edilmişdir. Bu da bəllidir ki, həmin o hərbi obyektlər Azərbaycanın təhlükəsizlik və dövlətçiliyinə təhdid edildi. Bu obyektləri bərpa etmək üçün Ermənistana hələ uzun illər lazım olacaq.

Bundan başqa Azərbaycanın həmin bölgələrdəki bütün nəqliyyat kommunikasiya sistemini və çox mühüm yüksəklikləri nəzarətə götürmüşdür. Məndə olan məlumatlara görə, Ordumuz Ermənistanın həmin o bölgələrdəki yüksəkliklərinin 500 kvadrat metr ərazisini nəzarətə götürmüşdür. Xeyli sayda da postlar ələ keçirilmişdir. Düşünürəm ki, bundan sonra nə indi, nə də gələcəkdə Ermənistan Azərbaycana heç bir real təhlükə yarada bilməyəcək.

Ordumuz Ermənistanı xeyli sayda hərbi texnikası, milyardlardan artıq dəyəri olan 2 C-300 raket sistem kompleksi, 400 nəfərdən çox canlı itkisi, 800-ə yaxın yaralı, 49 itkin düşəni və 50 əsiri Azərbaycan Ordusu tərəfindən ələ keçirilib. Təbii ki, bütün bunların fonunda Ermənistanın yüzlərlə yaralısı var. Onların bütün hərbi təyinatlı obyektləri və xeyli sayda strateji mövqeləri məhv edilib. Ermənistanın itkiləri Azərbaycandan qat-qat çoxdur. Azərbaycan Ordusu Ermənistanın ölkəmizə və hərbi bölmələrimizə qarşı ardıcıl həyata keçirdiyi təxribatların hansı acı nəticələrə gətirib çıxaracağını onlara bir daha göstərdi.

Bu da bəllidir ki, son zamanlar Ermənistan ciddi cəhdlə revanşa, yeni hərbi əməliyyatlara hücuma hazırlaşırdı. Biz bunların hamısını müşahidə edirdik. Onlar həm Qarabağda, həm də sərhəddə təxribatların sayını artırmışdılar. Bütün bunlara baxmayaraq, Azərbaycan Ordusu məhz Ermənistan ərazisində cəmi 7 saat davam edən unikal əməliyyat gerçəkləşdirərək bu planları alt-üst etdi.

Bundan sonra Ermənistan başa düşməlidir ki, kimsə, hansısa qüvvələrə arxalanıb Azərbaycanı fakt qarşısında qoya, Azərbaycana qarşı təhdid edə bilməyəcəkdir. Onlar bundan sonra ağıllarını başlarına toparlamalıdırlar. Bu, onların son şansıdır. Mən düşünürəm ki, Azərbaycan Ordusu Ermənistanın bu təcavüzkar, bu aqressiyasının qarşısını almaqdan ötrü daha ağıllı, planlı və bundan sonra yaranacaq hər hansı bir təhdidə qarşı daha aktiv cavab verəcək.

Ermənistanda bu dəqiqə daxili siyasi vəziyyət də çox ağırdır. Orada müxalifət və narazı olan qüvvələr Paşinyanın istefasını tələb edirlər. Bunlar hələ anlaya bilmirlər ki, istər Paşinyan, istər onu əvəz edən hər hansısa bir qüvvə olsun hakimiyyətə belə gəlsə yenə də Azərbaycanın sözü regionda keçərlidir, Azərbaycan regionun, xüsusən də öz bölgəsinin, öz ərazisinin sahibidir. Ermənistan artıq getdikcə bu revanşist və bu şovinist siyasəti ilə regionda yox, ümumiyyətlə, xəritədə yox olacaq.

Erməni əhalisi ölkəni kütləvi sürətdə tərk edib qaçır, sərhədyanı bölgələr boşalır. Siz təsəvvür edin ki, kəndlərdə məktəblər bağlanıb, heç 1-ci sinifə bir nəfər gedən də yoxdur. Gedənlər hamısı özləri ilə mülklərini, əşyalarını aparırlar və evlərini də satıb gedirlər. Yəni, bu onun göstəricisidir ki, onlar bir daha Ermənistana qayıtmaq istəmirlər. Çünki ümidləri ölüb. Laçın dəhlizini əlimizə keçirdikdən sonra bütövlüklə bunların ümidləri ölüb. Onlar elə bir vəziyyətə gəlib düşüblər ki, Azərbaycanla sərhəddə olan kəndlərdə belə qalıb məskunlaşmaq istəmir, yalnız Ermənistanın dərinliklərinə köçüb getmək istəyirlər. Təbii ki, bütün bunların fonunda Ermənistan öz havadarları var. Hansılar ki, onlara dəstək olurlar və vəziyyəti daha da ağırlaşdırırlar. Onlar bunları oyuna salıblar. Ermənilər birdəfəlik anlamalıdır ki, bəsdir onun-bunun əlində oyuncaq oldular”.



**Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyası İctimai Birliyinin sədri Rey Kərimoğlu:** ”Sentyabrın 12-dən 13-nə keçən gecə Ermənistan Azərbaycan sərhədində baş verən gərginliyin əsas səbəbi Ermənistanın Azərbaycan sərhədini pozması, sərhədi keçərək dağ massivlərində minalanma işi aparması və təxribat törətməsidir. Ordumuz da onlara cavab verərək, qarşısını alıb. Nəticədə isə, Azərbaycanın Daşkəsən rayonunda Zəngilana qədər bütün Ermənistanla sərhəd olan əraziləri atəşə tutulub. Bu zaman hərbçilər və dinc əhalimiz zərər görüb. Azərbaycan Ordusu da məcbur qalaraq düşmənin atəş hədəflərini susdurub və oranı nəzarətə götürüb. Nəticədə, Azərbaycan Ordusu düşmənin 53 postunu dağıdıb və 5 yüksəkliyi nəzarətə götürüb”.

***Ayşən Vəli***

***Sosial media istifadəsi gündəlik fəaliyyətimizin bir hissəsidir. Ondan istifadə etməyin və etməməyin faydaları son illərdə müzakirə olunur. Bu, vərdiş halını alıb və əl çəkmək çətindir. Bir müddət sosial mediadan uzaq qalmaq istəyirsinizsə, sadalanan bəzi taktikaları sınayın.***

# Sosial şəbəkə asılılığı nədir?



Sosial media hesablarını dondurub uzun müddət açmamağa qərar verdikdən sonra narahat olan və yenidən dostlarının hesablarından sosial media tətbiqlərinə daxil olmağa çalışan insanlar tanıyıram. Sosial media hesablarınızı dondurmaqda tərəddüd edirsinizsə, özünüzə sınaq müddəti verə bilərsiniz. Məsələn, 3 gün ərzində bütün hesablarınızı bağlaya və gün ərzində davranışlarınızı asanlıqla müşahidə edə bilərsiniz.

İndi evlərimizdə çoxlu ekranlar var. Ağıllı saatlar, televizorlar, telefonlar, planşetlər və s. Evdəki bütün ekranlardan fərqli şəkillərin və səslərin daşınması bir müddət sonra baş ağrısına səbəb ola bilər. Bunun əvəzinə ekranları eyni vaxtda deyil, bir-bir idarə etmək məntiqi seçim ola bilər.

Sosial mediada nə qədər çox hesab izləyirsinizsə, bir o qədər də oradan ayrıla bilmirsiniz. Kifayət qədər vaxt ayırmaqla, izlədiyiniz hesablardan bəzilərini təmizləyə bilərsiniz. Xüsusilə "İnstagram" haqqında danışsaq, ən az əlaqə saxladığınız hesabları sadalayan bir xüsusiyyət var. Bəzən az məlumat bilmək də insana rahatlıq verə bilər.



Ən çətin və ən mümkün olanı sona buraxdıq Evdən çıxarkən telefon götürmək zərurətə çevrildiyi kimi, qulaqcıqlar da bu ehtiyacın ən vacib hissəsidir. Qulaqcıqlar sosial şəbəkədi videoları izləmək üçün bizə çox dəstək olur. İctimai yerlərdə yüksək səslə videolara baxmaq kimi nəzakətsiz davranmayacağınız üçün qulaqlıq taxmamaq bizi sosial şəbəkədən qoruya bilər.

Məlum olduğu kimi, cari ilin 12-13 sentyabr tarixlərində Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədində törətdikləri genişmiqyaslı təxribatlara qarşı silahlı qüvvələrimiz tərəfindən layiqli cavab tədbirləri görülüb. Hazırda həyata keçirilmiş hərbi əməliyyatlarla bağlı "TikTok" sosial şəbəkə resursunda ordumuzun uğurlarına kölgə salan, hərbi sirləri özündə əks etdirən, cəmiyyətdə yanlış fikir formalaşdırmaq məqsədi güdən məlumatlar yayımlanmaqdadır. Göstərilənlərlə əlaqədar, "TikTok" sosial şəbəkəsinin fəaliyyətinin Azərbaycan ərazisində müvəqqəti məhdudlaşdırılması qərara alınıb və bunun üçün aidiyyəti orqanlar qarşısında vəsatət qaldırılıb.

Bununla bağlı Dövlət Təhlükəsizliyi Xidməti məlumat yayıb. Dövlət Təhlükəsizliyi Xidməti vətəndaşlarımızı digər sosial şəbəkələrdə paylaşılan həqiqətə uyğun olmayan və ictimaiyyət arasında vahimə yaratmağa hesablanmış belə məlumatlara inanmamağa və yalnız dövlət qurumlarının rəsmi məlumatlarına istinad etməyə çağırır.

Məlum olduğu üzrə, "Tiktok"un müvəqqəti olaraq ölkəmizdə fəaliyyəti dayandırılıb. Buna rəğmən insanlar "Vpn" vasitəsilə bu sosial şəbəkəyə daxil olmağa cəhd edirlər. Bəs, insanlarda sosial şəbəyə olan bu asılılıq nədən qaynaqlanır? Sosial şəbəkələrin mənfi və müsbət tərəfləri nədən ibarətdir? S?A mövzu ilə bağlı, sosioloq, psixoloq və texnologiya üzrə mütəxəssislərin fikirlərini öyrənib.

Fəlsəfə üzrə fəlsəfə doktoru, sosioloq Mail Yaqub: "Psixologiyada mühüm bir bəhs var: Adabtasiya problemi. Bu nədir? İnsan hər bir şeyə öyrəşir və istənilən təzə nəsnə bir müddət sonra adiləşir. İnsan bu adiləşmədən sıxılır və nəticədə bu sıxıntını aradan qaldırmaq üçün yenilik-yeni nəsnə axtarışına çıxır. Sosial şəbəkələr daim və hər an yeni məlumatlar ötürdüyü üçün insanın bu tələbatını, yəni yeniliyə ehtiyacını ödəyir. Nə edək? Təbii ki, müasir dövrdə sosial şəbəkələri bağlamaq qeyri-mümkündür. Bir yol var: Sosial şəbəkələrdən düzgün istifadə. Necə? Qanuna və əxlaqa zidd paylaşımlar etməmək. Sosial şəbəkələr də real həyatın aynasıdır. Real həyatda necə davranmalıyıqsa, virtual məkanda da elə olmalıyıq. Yenə də qayıdırıq maarifləndirmə və təhsil işinə. Bu, çox vacibdir. Təbii ki, yüksək əxlaqı, təhsili olan şəxs harada olursa-olsun öz davranışına nəzarət edəcək".





Psixoloq Gülər Məmmədova: "Ümumilikdə götürsək, "TikTok" istifadəçilərinin hamısını birləşdirən bir xüsusiyyət var. Bəs, bu xüsusiyyət nə ilə səciyələnir? Onlar özlərini real kütlə qarşısında təsdiq edə bilmədiyi təqdirdə, öz şəxsi həyatlarını rahat şəkildə çoxluq içində təqdim edə bilirlər. Bu, həmin şəxslərin reytinqinin yüksəlməsinə səbəb ola bilir və onlar insanların maraq dairəsini idarə edə bilirlər. Onlar özlərini bu sahədə təsdiq ediblər və bu, onlara zövq verir. İnsan sanki özünü özünə sübut etməyə çalışır.

Bəlkə də zamanında ona "Sən bunu bacarmazsan" deyildiyi üçün, insan "TikTok" kimi sosial şəbəkələrdən istifadə edərək öz boşluqlarını doldura bilir. Bu məşhurlaşmaq və diqqət mərkəzində qalmaq istəyənlərə aiddir.

Bu gün "TikTok"un dayandırılması buna vərdiş edən və alüdə olan insanların psixologiyasına mənfi təsir göstərir. Bu aspektdən də onlar digər variantlara üz tuturlar. Lakin insan hər bir ekstremal şəraitə uyğunlaşmağı bacarmalı və bunun hər an baş verə biləcəyini göz önünə gətirməlidir. Bu insanların vacib işləri olmadığından özlərini burada tapırlar və buna görə də narahat olmaqları məqbul sayılır".

"Technogen MMC" və "DevCenter MMC" şirkətinin təsisçisi, "Aral" Şirkətlər Qrupunun İnformasiya Texnologiyaları Departamentinin direktoru Fərrux Rəcəbli: "Sosial şəbəkə artıq həyatımızın bir parçasına çevrilib. Belə ki, bu platformalardan istifadə etməyə heç bir yaş kateqoriyası yoxdur.

Hər ölkədə və hər insanın sosial şəbəkədən istifadəsi fərqlidir. Azərbaycanda düşünürəm ki, daha çox şəxsi məqsədli istifadə reytinqdə daha yüksək olar və sosial şəbəkə proqramları içərisində "TikTok" daha çox məşhurdur. Çünki daha çox gənc kütlənin ən çox istifadə etdiyi sosial şəbəkə məhz "TikTok"-dur.

Asılılıq məsələsinə gələndə mən belə düşünürəm ki, əgər bir insan sosial şəbəkədən biznes, reklam, maarifləndirmə və s. bu tipli ciddi məqsədlər üçün istifadə edirsə sosial şəbəkə onun həyatında sadəcə gündəlik bir planlamaya, yaxud da gündəlik edə biləcəyi bir tapşırığa, işə çevrilə bilər, asılılığa çevrilməyi mümkün deyil. Asılılıq sadəcə o insanlarda və o hallarda yaranır ki, həmin insanların gündəlik heç bir məşğuliyyəti yoxdur və ətraflarında elə bir kütlə yoxdur ki, dostluq etsinlər, onlarla düzgün, daha maraqlı zaman keçirsinlər. Onlar məcbur qalırlar ki, zamanlarını sosial şəbəkələrdə keçirsinlər. Əsasən də "TikTok"da. Bu da bir müddət sonra onlarda asılılıq yaradır. Artıq onlar sosial şəbəkə olmadan yaşaya bilmirlər. Hətta mənim tanıdıqlarım var ki, onlar sosial şəbəkə məlumatlarını itirdiklərinə görə, yaranan hansısa bir problemə görə ciddi psixoloji krizis, yaxud depressiya yaşayıblar. Əlbəttə ki, bu yaxşı hal deyil. Mənfi cəhəti odur ki, biz ətrafımızda artıq yavaş-yavaş hər kəsi itiririk. Çünki hamı artıq bir-birindən sosial şəbəkə vasitəsilə xəbər tutur. Yəni, əvvəlki dövrlərdəki kimi bir-birimizə zəng vurmaq, axtarmaq, maraqlanmaq, görüşmək, zaman keçirmək bu şeylər çox aşağı səviyyədədir. Bir sözlə, sosial şəbəkə bizi gətirib buralara çıxardır.

Digər mənfi cəhətləri odur ki, sosial şəbəkələrdə zaman keçirmək bizim daha ciddi yəni, o zamanımızı daha önəmli şeylərə sərf etməyimizə bir əngəldir. Müsbət cəhəti sadəcə ondan ibarətdir ki, bizə lazım olan hansısa bir məlumatı, hansısa bir xəbəri sosial şəbəkədə əldə edə bilərik və yaxud da ki, hansısa bir yenilik varsa sadəcə o yeniliklə bağlı məlumat əldə edə bilərik. Müsbət cəhət sadəcə bundan ibarətdir və mənfi cəhətləri heyif ki, daha çoxdur. Bunları sadalamaqla bitməz".

***Ayşən Vəli***

ARAŞDIRMA



# “Makronun mövqeyində ciddi dəyişikliklərin olacağı istisnadır”

***“Paris və Moskva bütün hallarda Ermənistanın xeyrinə deklorativ xarakterli bəyanatlardan başqa hər hansı bir digər addım atmayacaq. Prinsip etibarı ilə Rusiyanın problemə münasibətdə mövqeyində ciddi dəyişikliklərin olacağı gözlənilmir”. Bunu ”Səs” qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.***

Onun sözlərinə görə, Moskva gözəl anlayır ki, Azərbaycanla Ermənistan arasında hərbi əməliyyatlar Azərbaycan ərazisində gedir: ”Azərbaycan da təbii ki, öz ərazi bütövlüyü və suverenliyini təhdid edən qüvvələrə qarşı mübarizə aparır. Bu Azərbaycanın beynəlxalq hüquqla təsdiq olunmuş suveren hüququdur. Ən əsası odur ki, hərbi əməliyyatlar Ermənistan ərazisində getmir. Bu kontekstdə də düşünürəm ki, 2020-ci ildə olduğu kimi, Rusiya bu dəfə də, Azərbaycanla münasibətlərin məzmun və mahiyyətindən irəli gələn amillərə istinad edərək İrəvana ciddi dəstək verməyəcək. Fransa isə İrəvana diplomatik və siyasi dəstək nümayiş etdirəcək. Bu mənada Makronun mövqeyində ciddi dəyişikliklərin olacağı istisnadır. Eyni zamanda, Makron praqmatik siyasətçidirsə, Azərbaycanda olan 200-dən çox fransız şirkətlərinin maraqlarını da nəzərə almalıdır. Paris və Moskva bütün hallarda Ermənistanın xeyrinə deklorativ xarakterli bəyanatlardan başqa hər hansı bir digər addım atmayacaq. Nə Rusiya, nə də Fransa İrəvana hərbi dəstək verən deyil. Nə də onlar Ermənistanın əvəzinə gəlib Azərbaycanla qarşı-qarşıya vuruşan tərəflər deyil. Bu mənada da Makron və Putin telefon danışığında Paşinyana konfrantasiyadan uzaq durmağı və sülhdən başqa yolun olmadığını başa salıblar. Bu son həddir Azərbaycanla danışmağın başqa yolu da qalmayıb”.

***G. Ağakərimova***

# “Radikal müxaliflər üçün vətən məfhumu yoxdur"

“Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər ordumuz düşmən təxribatlarının qarşısını alaraq dövlət sərhədimizdə vəziyyətə tam nəzarət edir. Silahlı Qüvvələrimiz düşmənin legitim hərbi hədəflərini məhv edərək düşməni böyük canlı itki ilə üzləşdirib”. Bunu millət vəkili Azər Badamov ”Səs” qəzetinə açıqlamasında bildirib.



Onun sözlərinə görə, dövlət müstəqilliyi üçün mühüm əhəmiyyət daşıdığı həssas məqamlarda sapı özümüzdən olan baltalar həmişə olduğu kimi, düşmən dəyirmanına su tökməyə başlayırlar: ”Xaricdə oturub düşmənlərimizdən sifariş alaraq Azərbaycanın haqq işinə kölgə gətirmək istəyənlər, əslində, erməninin özündən də qorxuludur. Onların bütün hərəkətləri xalqa və vətənə xəyanət üzərində qurulmuşdur. Dövlət Başçımız bizim başqasının torpağında gözümüz olmadığını dəfələrlə bəyan etmiş və düşmənə sülh əlimizi uzatmışıq. Ermənilər isə sülh əlimizdən tutaraq regionda sabitliyin yaranmasına xidmət edəcək addımların atılması əvəzinə Azərbaycana qarşı geniş hərbi təxribata başladı. Silahlı Qüvvələrimiz tərəfindən bu günlərdə aparılan əks həmlə əməliyyatları da öz ərazimizdə aparırıq və düşmənə yenidən təxribatların aparılmasına imkanları məhdudlaşdırmaq məqsədilə bufer zonasının yaradılmasına xidmət edir. Əgər ermənilər mütəmadi olaraq təxribatlara əl ataraq ölkəmiz üçün təhlükə yaratmasaydı və öz öhdəliklərini icra etsəydi indiki əks təxribat əməliyyatımıza da ehtiyac olmazdı. Xaricdə oturan sapı özümüzdən olan baltalar Tural Sadıqlı, Sevinc Osmanqızı, Qənimət Zahid və digərləri ermənilərin sifarişlərini icra edərək xalqı yanlış yola çəkməyə cəhd edir, sərsəm çağırışlar səsləndirir”.

A.Badamov onu da bildirdi ki, müxaliflər üçün vətən məfhumu yoxdur: ”Azərbaycan dövləti haqq işi görür və beynəlxalq normalara söykənir. Xalq isə milli maraqlarımıza əks olan belə çağırışlar edən xainlərə inanmır və ordunun yanında düşmənə qarşı dəmir yumruqa çevrilmişdir. Həm də xalqımızın milli maraqları üçün böyük əhəmiyyət daşıdığı belə bir həssas vaxtda radikal müxalifət hamımız üçün əziz şəhidlərimizin adından istifadə edərək hakimiyyəti ittihamlar səsləndirməklə özlərini yenidən reklam etməyə çalışır. Xalq böyük ürək ağrısı ilə qəhrəmancasına vətən uğrunda canından keçmiş şəhidləri dəfn etdiyi bir vaxtda bu mövzudan istifadə edərək reytinq qazanmaq niyyəti ilə dövlətin milli maraqlarına qarşı çıxmaq heç də düşmənlərimizin mənafelərinə xidmət etməkdən başqa bir şey deyil. Beləki, Əli Kərimli özünün sosial şəbəkə hesabında məsləhətlər verməyə başlayıb. Ə.Kərimliyə soruşmaq istəyirəm ki, Ali Baş Komandanın rəhbərliyi altında 44 gün Vətən müharibəsində azad etdiyimiz ərazilərin satılması və bu gün yaşadığımız problemləri AXC və Müsavatın hakimiyyəti illərində baş verməyibmi? Məhz sizin hakimiyyəti qorumaq üçün torpaqlarımızı ermənilərə verməsindən xalqımız 30 il əziyyət çəkməyibmi? Bəli, tarix heç nəyi unutmur. Azərbaycanın Dövlət Başçısı xalqın dəstəyi ilə bu gün vaxtıla sizin yaratdığınız problemləri aradan qaldırır. Sizin və ətrafınızda dolaşanların xalqın adından danışmağa haqqı yoxdur. Xalq ölkə başçısının yanında birləşib və Azərbaycanı daima qələbələrə aparacaqdır”.

***Gülyana***

# “İnvestisiya qoyuluşunda güzəştlər olunacaq”



“İşğaldan azad olunan ərazilərimizə investisiyanın cəlb edilməsi prioritet məsələlərdəndir”. Bu fikirləri S?A-ya açıqlamasında iqtisadçı-ekspert, millət vəkili Vüqar Bayramov bildirib. İqtisadçı-ekspert qeyd edib ki, artıq həm yerli, həm də xarici investisiyaların cəlb edilməsi ilə bağlı işlər həyata keçirilir: ”2023-cü ildən etibarən isə Qarabağda və Şərqi Zəngəzurda investisiya qoyuluşlarında kifayət qədər böyük güzəşlərin tətbiq ediləcəyi gözlənilir. Bu güzəşlər vergi və bir sıra subsidiyaların tətbiq edilməsində özünü göstərəcək. Bu baxımdan daha çox investisiyaların cəlb edilməsi ilə bağlı sistemli işlər gedir və gözlənilir ki, bu istiqamətdə atılan addımlar həm yerli, həm xarici sərmayənin cəlbinə imkan yaradacaq. Artıq bir sıra ölkələr azad olunmuş ərazilərimizdə investisiyaların qoyuluşunda maraqlı olduğunu bildirirlər. Avropa İttifaqına üzv olan ölkələr, o cümlədən Türkiyə, Qazaxıstan, Özbəkistan və bir sıra digər ölkələrdən investisiya qoyuluşları ilə bağlı müraicətlər var. Bütün bunlar təbii olaraq xarici sərmayənin cəlb edilməsinə imkan yaradacaq. Həmçinin bütün bunlar işğaldan azad olunmuş ərazilərimizdə iqtisadiyyatın inkişafına səbəb olacaq”.

***Banuçiçək Hüseynli***



**Mətanət MƏMMƏDOVA**

# *Qələbə + qələbə*

***Sentyabrın 12-dən etibarən ermənilərin təxribatı nəticəsində Azərbaycan-Ermənistan sərhədinin Laçın, Kəlbəcər və Zəngilan istiqamətində başladıqları gərginliklə qonşuluqdan kənar olmuş ünsürlər yenə də murdar xislətlərini ortaya qoydular. Bütün bunlar onların revanşist siyasətinin, mövcud vəziyyəti öz xeyrinə dəyişdirmək cəhdinin təzahürləridir.***

44 günlük Vətən müharibəsində orduları tamamilə darmadağın edilən, çoxsaylı itki verən erməni ağılsızlarının ağlını yenidən qızışdırıcılara verməsi onların həqiqətən də ağıldan kəm olduqlarını bir daha sübut etdi. Ötən günlər texnikalarının yenə də ordumuz tərəfindən dağıdılması, çoxsaylı itki vermələri görəsən bu dəfə necə, bunların ağıllarını başlarına gətirəcəkmi?

Bir qrup ağılsızın qızışdırılıb ortaya salınmasının ağrılarını isə bütün erməni xalqı yaşamaqdadır. Bu səbəbdən də günlərdir ki, insanlar küçələrə çıxıb nümayişlər keçirir, bu prosesin dayandırılmasını tələb edirlər. Çünki xalq artıq anlayır ki, Qarabağ Azərbaycanındır, bu torpaqlardan onlara heç bir fayda yoxdur, əks təqdirdə isə itirə-itirə gedirlər.

Ordumuzun 12-14 sentyabr hadisələrində yenə də qələbə qazanması, bir sıra yüksəklikləri ələ keçirməsi və qəhrəman övladlarımızın canı, qanı ilə Vətənimizi göz bəbəyi kimi qoruyaraq ermənini bu dəfə də yerində oturtması, başına od yağdırması bütün dünyaya ölkəmizin başçısının dəyərli fikirlərini bir daha bəyan etdi. Bəyan etdi ki, erməni faşizmi yenidən baş qaldırarsa, başı yenidən əziləcəkdir.

Hadisələrin belə gərgin zamanında ermənilərin bir nömrəli dəstəkçisi, havadarı və qızışdırıcısı Fransanın ”Nant” futbol klubunun Avropa liqasının qrup mərhələsinin 2-ci turunda keçirilən oyunlarda iştirak etmək üçün Bakıda olması və ”Qarabağ”la görüşməsi, gərgin keçən oyunda ”Qarabağ”ın 3:0 hesabı ilə qalib gəlməsini Azərbaycanın yeni qələbə + qələbəsi adlandırmaq olar. Bu, həqiqətən də böyük qələbədir. Azərbaycanlı futbolçunun hünərinin, qətiyyətinin, əsl Azərbaycan igidi olduğunun göstəricisidir. Qarabağdakı hadisələr, şəhid xəbərinin alınması təbii ki, futbolçularımızın oyuna hazırlıq məşqlərinə, onların oyuna hansı əhval-ruhiyyə ilə başlamasına təsirsiz qalmamışdır. Bütün bunların fonunda Qarabağ adını ürəkləri ilə yanaşı, komandalarının adında da gəzdirən igidlərin bu qələbəsi böyük, həm də əvəzsiz qələbədir.

Həqiqətən də qürurvericidir. Sən gəl erməninin arxasında dayandığını hər hərəkətinlə, hər sözünlə açıqca nümayiş etdir, qızışdır sal haqqın tərəfində olan, öz torpaqlarını qoruyan, erməninin sərhədindən bir addım belə daxilə ayağını basmayan xalqın üstünə, erməni də ağlının kəm olması səbəbindən səni dinləyib yüzlərlə insanını güdaza versin, elə bu ərəfədə də futbolçuların azərbaycanlı futbolçularla qarşılaşsın və çox gülünc vəziyyətdə bir oyun nümayiş etdirsin, bu, həqiqətən çox gözəl cavabdır. Həm ordumuzun erməniyə gözəl cavabı, həm də futbolçularımızın erməni havadarına gözəl cavabıdır.

Buyurun, Azərbaycanın gücünü görün. Bir papağınızı (əgər varsa) qarşınıza qoyub əməlli-başlı fikirləşin, görün kiminlə qarşı-qarşıya gəlirsiniz. Bəsdir, əl çəkin köhnə fikirlərinizdən. Siz qalmısınız 90-larda. Azərbaycan rəhbərlərinin torpaqları sizlərə peşkəş etməsində, Azərbaycanlı oğulların sizin qarşınıza quş ovlamaq üçün tüfənglə çıxdığı dövrlərdə. Siz qalmısınız Azərbaycanın iqtisadi tənəzzül dövründə. O indi meydanlarda varlığını hiss etdirmək istəyən sizlərdən olanlar var ha, 30 il əvvəl torpaqları satıb bir qərinədir ki, bu xalqı məşəqqətlərlə üz-üzə qoyanlar, siz qalmısınız onların təfəkkürünün kölgəsində.

Ayılın, gözlərinizi yaxşıca silin, ətrafa baxın. Qarşınızdakı Azərbaycanı görməyə çalışın. Azərbaycanın dövlət başçısını, hazırkı iqtisadi durumunu, ordusunu, vətənpərvər gənclərini, həmrəy xalqını, bir, birlik olan millətini, bəli, bir də idmançısını görün. Yaxşı baxın, baxın ki, görə biləsiniz. Yoxsa dünyada sizin kimi o qədər yalnızca baxanlar var ki, bir həyat boyu görə bilmirlər.

Yaxşı baxın. Bir həftə ərzindəki qələbə+qələbənin üzərinə daha necə üstəgəllərin qələbə gətirməsini istəmirsinizsə, yaxşı baxın. Baxın ki, öz yuvanıza çəkilib öz işinizlə məşğul olmağa qərar verəsiniz ta. Baxın, yaxşı-yaxşı baxın.

# Dəyişməyən erməni xisləti: törədilən terror və qətliamlar



*Bir xalqın, bir millətin Vətən oğullarının torpağa can fəda etməsi. Vətəni öz canından əziz tutanların düşünmədən od-alov içinə atılması - od püskürən müharibə alovuna. Neçə-neçə arzular qoynunda vətən sevgisini ən yüksəkdə tutmaq böyük aşiqliqdir, Vətənə sevgidir. Sanki Vətən üçün doğulublar onlar. Ata öz çiynində şəhid oğlunu son mənzilə yola salanda "Vətən sağ olsun", - deyir, Vətənin müqəddəsliyini şeirlə ifadə edir. İçindəki fəryadı vətən sevgisi ovudur. İlahi, bu nə gücdür.*

Od ürəkli, od nəfəsli diyarımızda Vətən oğlu ayaqdadır. Erməniyə kimliyini bir daha göstərmək üçün, dili, dini, torpağı olmayan erməniyə. İllərdir ki, xalqımız onun iyrənc əməllərindən terror aktlarından əziyyət çəksə də məğrurdur, yenilməzdir. Çünki onu dünyaya gətirən Ana vüqarlıdır, torpağı əzəmətlidir. Erməni anası kimi övladını qisasla böyüdən ana yox, əqidəsi, gücü ilə dünyaya səs sala biləcək oğul böyüdüb. Mübariz dəyanətli, Polad iradəli. Sabahın yeli olan Səbuhilər yetirib - bu dünyadan sabaha səs salacaq oğullar, Qalx, ayağa Azərbaycan! - deyəndə bir nəfər kimi uşaqdan böyüyə qədər hər kəs ayağa qalxıb. Koroğlu qeyrətli Azərbaycan xanımları da, Arəstələr vətən oğullarına arxa oldu.

### ORDUMUZUN VERDİYİ DƏRS -DÜNYA HƏRB TARİXİNDƏ YENİ SƏHİFƏ

30 ilə yaxın işğal dövründə Azərbaycan hər zaman bu qisası almağa, ucadan-uca üçrəngli Azərbaycan bayrağını, qürurlu, əzəmətli Azərbaycan Bayrağını vətən torpağı üzərində məğrur-məğrur dalğalanacağı günün lap yaxında olduğunu yaxşı bilirdi. Vətən torpağına axıdılan şəhid qanının, qoca, qadın və uşaqların qışın sərt sazağında, yayın istisində el-obasından didərgin düşməsinin qisasının alınacağı günü səbirsizliklə gözləyirdi igid oğullarımız. Zaman yetişdi. Dəfələrlə erməninin törətdiyi təxribatları yaşamış xalqın qisası tarixə həkk olundu. Xocalı faciəsi, Ağdaban faciəsi, daha nələr, nələr. 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz düşmənə necə dərs verdisə, dünya bu hərb tarixini də öyrənir. Dəfələrlə Cənab Prezident İlham Əliyev bəyan edib ki, ermənilər bir də baş qaldırsalar, "dəmir yumruq" yerindədir. Azərbaycanın gücü, hərbi potensialı dünyanın gözü qarşısındadır. Ermənistan beynəlxalq hüquq normalarını yenidən pozaraq sentyabrın 12-də gecə saatlarından başlayaraq, genişmiqyaslı təxribat törətdilər. Bu təxribatı törətməklə Azərbaycan-Ermənistan sülh danışıqlarını pozmaq və regionda hərbi gərginliyi artırmaq məqsədini reallaşdırmağa çalışıb. Ermənistanın hazırkı siyasi elitası 2020-ci il 10 noyabr Bəyanatının şərtlərini yerinə yetirməməkdə, sülh danışıqlarını müxtəlif bəhanələrlə pozmaqda israrlı olduğunu göstərir. Azərbaycan 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında olan ərazilərini erməni təcavüzkarlarından azad edərək, işğala son qoydu. 30 ilə yaxın bir zamanda işğalda olan torpaqlarımız azad nəfəs aldı. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə bəyanatı imzalandı. Dəmir yumruğun gücünə imzalanan bəyanata əsasən, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Üçtərəfli bəyanata əsasən, 15 noyabr tarixində Kəlbəcərin təhvil verilməsi qərarlaşdırılsa da Ermənistan tərəfinin Rusiya vasitəsilə Azərbaycandan xahişi ilə bu müddət 25 noyabr tarixinə qədər uzadıldı və Kəlbəcər işğaldan azad olundu. Azərbaycan Prezidenti çıxışlarının birində bildirdiyi kimi, "Rusiya rəhbərliyi bizə müraciət etmişdir ki, onlara əlavə on gün vaxt verin, onlar buradan öz şələ-şüləlrini yığışdıra bilmirlər. Onlara vaxt verin ki, çıxsınlar. Biz yenə də humanistlik göstərdik. Yenə də vaxt verdik noyabrın 25-nə qədər. Amma onlar bu müddət ərzində nə etdilər?! Onlara məxsus olmayan, qanunsuz məskunlaşdıqları evləri yandırdılar, dağıtdılar. İndi yol boyunca o evlər görünür. Ağacları kəsdilər, ağacları yandırdılar. Bax, erməni vəhşiliyi budur. Zaman dəyişir, erməni faşizmi dəyişmir və dəyişməyəcək. Heç kim bunu unutmamalıdır".



### SÜLHƏ QƏNİM KƏSİLƏN ERMƏNİ ÇİRKİN ƏMƏLLƏRİNİ BİR DAHA ORTAYA QOYDU

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycanın həm döyüş meydanında, həm də diplomatik danışıqlar nəticəsində qazandığı zəfər tariximizə Qələbəmizi həkk etdi və bu, hər birimizdə böyük qürur, fəxarət hissi yaratdı. Bu tarixi qələbəmiz bütün dünyaya yayıldı və Azərbaycanın qısa bir zamandakı hərbi əməliyyatı, taktikası bu gün dünya ölkələri tərəfindən öyrənilir. Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə cəbhədə Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr vurmaqla, onları torpaqlarımızdan "iti qovan kimi" qovaraq məğlub etməsi 30 ilə yaxın işğal altında olan tarixi torpaqlarımızın azad olunması ilə nəticələndi. Bu əlamətdar



hadisə milli birliyimizi, həmrəyliyimizi daha da gücləndirdi. Bu gün artıq Azərbaycan işğaldan azad olunan torpaqların abadlıq-qurucuqluq işlərinə start verib. Azərbaycanın uğur və nailiyyətləri, Zəfəri dünya mətbuatının manjetinə çevrildi. Bəs, bu gün nə baş verdi? Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri apardığı bir zamanda Ermənistanın yenidən bu cür çirkin əməllərə əl atması təcavüzkar siyasət yürüdən Ermənistanın davamlı sülh prosesinə ciddi manea olduğunu bir daha ortaya qoymuş olur. Hər zaman olduğu kimi, dost ölkələr, Türkiyə bugünkü situasiyada Azərbaycan xalqının yanındadır. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi genişmiqyaslı təxribatların qarşısının alınması zamanı hərbi qulluqçularımızın şəhid olması ilə əlaqədar onların yaxınlarına və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verərək, qardaş Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu qeyd edib və ölkələrimizin həmrəy olduqlarını vurğulayıb. Ermənistanın genişmiqyaslı hərbi təxribatının qarşısının Silahlı Qüvvələrimiz tərəfindən şücaətlə və yüksək peşəkarlıqla alındığını, şəhidlərimizin qanının yerdə qalmadığını, onların intiqamının alındığını - deyən Prezident İlham Əliyev bu genişmiqyaslı hərbi təxribatların məsuliyyətinin bilavasitə Ermənistanın üzərinə düşdüyünü bildirib.

Əlbəttə ki, Azərbaycana dost olan ölkələr, bütövlükdə türk dünyası Azərbaycan yanındadır. Türk Dövlətləri Parlament Assambleyasının Katibliyi Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində insan tələfatı və yaralanması ilə nəticələnən hərbi təxribatı ilə bağlı dərin narahatlığını bildirir və bu vəziyyəti qətiyyətlə qınayır. TÜRKPA beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyini və qardaş Azərbaycanın ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına güclü dəstəyini bir daha təsdiq edərək, Cənubi Qafqazda davamlı sülh və sabitlik naminə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün səylərin əhəmiyyətini vurğulayır.

### "DƏMİR YUMRUĞ"UN GÜCÜNÜ GÖRMÜŞ ERMƏNİLƏR UNUTQANLIQ EDİRLƏR

Azərbaycanın bayrağını yüksəkliklərdən-yüksəkliklərə qaldıran siyasi gücə, iradəyə malik Böyük Lideri, Sərkərdəsi və Prezidenti var. Bu güc, bu Sərkərdəlik Azərbaycan xalqını Müzəffər xalq kimi dünyaya tanıtdı, ZƏFƏR qazanmış xalq olaraq hərbi gücümüzü dünyaya göstərə bildik. Əlbəttə ki, Zəfərə qədər Azərbaycan Ordusunun şanlı tarixində mühüm yerlərdən birini tutan 2016-cı ilin Aprel döyüşləri artıq düşmənə Azərbaycanın gücünü göstərmişdir. "2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik"- deyən Cənab Prezident 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsinin Azərbaycan Ordusu tərəfindən götürüldüyünü və işğalçıların o bölgələrdən qovulduğunu qeyd etmişdir: "Azərbaycan Ordusu tərəfindən götürülmüş strateji yüksəkliklər imkan verir ki, biz Ermənistanın bir neçə yaşayış məntəqəsinə nəzarət edək. Ermənistandan Dağlıq Qarabağa gedən avtomobil yolu bizim nəzarətimizdədir. Vaxtilə - 1990-cı illərin əvvəllərində Naxçıvan ərazisinin bir hissəsini işğal etmiş Ermənistan qüvvələri həmin ərazilərdən qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı". 26 il işğal altında olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun növbəti uğuru kimi tarixə yazıldı.

"Dəmir yumruğ"un gücünü görmüş ermənilər unutqanlıq edirlər. Bildiyimiz kimi, bu yaxınlarda qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərmişdir. Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəklikləri nəzarətə götürüldü. Əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdıldı. Ermənilər bu günə qədər Azərbaycan ordusunun gücünə, Ali Baş Komandanın siyasi gücünə, iradəsinə yaxşı bələddirlər. Bu gün vətənpərvər ruhda tərbiyə almış Azərbaycan gənci hər qarış torpağın müdafiəsində dayanır. Gənclərin Vətən müharibəsi başlayanda könüllü olaraq orduya yazılması, vətən torpaqlarının müdafiəsinə qalxması vahid niyyət ətrafında birləşən gənclərimizin əzmkarlığını, vətənə sevgisini bir daha göstərmiş oldu. Azərbaycanın haqq səsi dünya ölkələri tərəfindən dəstəklənir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu siyasəti nəticəsində ordunun gücləndirilməsi istiqamətində lazımi tədbirləri həyata keçirmiş və ən yeni silah və sursatla, peşəkar zabit kadrları ilə tam təmin olunmuş Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində ərazisini erməni terrorçularından azad etdi. Artıq ermənilər Azərbaycan ordusunun gücünə bələddir. Öz havadarlarının gücünə arxalanmaları və unutmamalıdırlar ki, yenidən məzlum, dilənçi görkəmlə dünyaya əl uzadacaqlar.

**Zümrüd BAYRAMOVA**

# Ələyəz yeli

***Hə, düz 30 il əvvəl özlərini "Vətən fədaisi, xalq cəfakeşi, millət canyananı, torpaq sevdalısı" adlandıran qrup vardı, yəqin xatırlayarsınız. Hərəsi bir partiya yaradıb əyləşmişdilər başında, əsas məqsədləri isə hakimiyyətə gəlib yüksək tribunalarda, kreslolarda oturmaq idi.***




*Xalqı hey çağırırdılar. İlahi-pərvərdigar, bizlərə nələr vəd etmirdilər? Deyirdik ki, ta vəssalam ey, bunlar hakimiyyətə gəlsə, yaşadıq. Nə bilim ey, dünya onların verdiyi vədlərdən bixəbər idi. Sözün qısası, onların gəlişi ilə dünyada bizdən olmayacaqdı. Biz nə edək axı, inanmağa başlamışdıq. Sovet imperiyasının buxovundan yenicə qurtulan insanlar, bilmirdilər ki, heç nə edirlər. Bunlar düşmüşdülər meydana, vəd idi ki, yığdırırdılar, biz də qulaq asıb o vədlərin xəyalını qurmaqla günümüzü keçirirdik.*

Günlərin bir günü bunlar arzularına çatdılar, hakimiyyətə gəldilər. Görüm gəlməz olardılar. Gəlməkləri ilə iç üzlərinin açılması bir oldu. Gördük ki, ay aman, biz nə yaman yanılmışıq? Ə qardaş, bunlar o vədləri deyən adamlardır? Allah, amansan, ikiüzlülüyə bir bax...

Bizi tanımadılar ki, bunlar axı bu xalqın nümayəndələridir, bizim millətdəndilər. Başladılar ölkədə istədiklərini etməyə. Meydan verilmişdi fürsətçilərə. Qısa zamanda "necə edim hər şeyim olsun" təfəkkürü bunları yoldan-rizdən o qədər çıxardı ki, başladılar torpaqlarımızı da satmağa. Bir də gördük ki, Qarabağ nə gəzir, odur ey ermənilərin əlindədir. Gündə bir rayon, gündə bir şəhər, gündə bir kənd satdılar, sovdular, arada da xalqın yazıq balaları güdaza getdi. Səslərini salıb içlərinə heç kimə demirlər ki, ay camaat, niyə erməniyə qarşı döyüşürsünüz, faydası yoxdur ey, biz o torpaqları satmışıq.

Yazıq millət də qalıb sərhədlərdə, ordusu yox, silahı-sursatı yox, başında duran bir ağıllı adam yox. Qolunun gücünə çıxır erməninin qarşısına. Şəhid-şəhid ardınca gəlir evlərə. Müsibət qalxır ərşi-fələyə. Bunlar da oturublar otaqlarında, bayıra çıxmır, nə dinir, nə danışır, nə cəbhədən gələn kömək diləklərinə cavab, nə də reaksiya verirlər. Qətiyyən düşünmürlər ki, axı bu qırılan bizim xalqdır.

Aradan az vaxt keçdi. Qarışdılar bir-birilərinə. Artıq AXCP-Müsavat cütlüyü oldu düşmən. Dünənədək meydanlarda əl-ələ vermişdilər, bu gün artıq vəzifə bölgüsü üstündə düşmənə çevrildilər. Yazıq xalq da qalıb aralıqda, göyə əl uzadır, gör yanır, yerə əl uzadır, yer yanır.

Beləliklə, torpaqlar getdi. Düz 20 faiz torpaq bunların hakimiyyətinin qurbanı oldu. Xalq gördü ki, yox ey, bunlar hakimiyyətdə bir az da artıq qalsalar, erməni gəlib Bakını da götürüb deyəcək bura da mənimdir. Ona görə də qalxdılar ayağa, başladılar üsyana. Çox gərgin, uzun mübarizədən sonra bunları hakimiyyətdən devirə bildilər. İndi o dövrlərdə yaşayan kimdən bunları xəbər alsanız, torpaqları ermənilərə satmaqlarından başqa heç nəyi xatırlamayacaqlar.

Hə, düz 30 il bunların səriştəsizliyi, tamahı, iştahası, hərisliyi, bacarıqsızlığı, qabiliyyətsizliyi ucbatından əziyyət çəkdi bu xalq. Azərbaycanlı olasan, torpaq sevdalısı olasan, torpağın, əzəli dədə-baba yurdun qala düşmən tapdağı altında, gəl ürəyin partlamasın da. Ta nə deyim ey. Bunlar bu ölkənin başına bir müsibət açmışdılar ki, heç nə qalmamışdı ortalıqda. Ta xalq hansı güclə torpağını geri almağa gedəcəkdi ki. Buna zaman, həm də uzun bir zaman lazım idi ki, ölkə özünə gələ, dirçələ.

Zaman ötdü, oldu 2020-ci il. Azərbaycan xalqı inkişaf etdi, özünə güc topladı və torpaqlarını azad etməyə qalxdı. 44 gün erməni ilə şiddətli müharibə apardı. Minlərlə övlad itirdi yenə, minlərlə qazi qazandı yenə, müharibə meydanından kənarda yaşayan yüzlərlə sakin vəfat etdi, evi dağıdıldı, həyat-bacası yararsız hala salındı. Amma xalq geri çəkilmədi. Torpaqlarımızı bir-bir yağıdan aldı. İtkilərimiz çox oldu, lakin torpağımızı geri ala bildik. Bunu eşidən AXCP-Müsavat törtöküntüsü ta səslərini çıxarmadılar, günahlarını bilirdilər axı. Elə bir heç bunlar adlısı yoxmuş. Saldılar səslərini içlərinə.

İndi bu günlər erməni yenə başını qaldırıb bir tərəfə atəş açıb, sülh danışıqlarını pozub, təxribat törədib. Bizim də əsgərimiz təbii ki, onların cavabını verib, sərhədini, torpağını qoruyub. Şəhidlərimiz olub.

Bunlar nə ediblər? "Qeyrətə" gəlib, ayağa qalxıblar, yenə hərəsi bir hava çalır, elə səs-səsə veriblər ki, hansının nə hava çaldığı bilinmir. Bir bilinən, anlaşılan odur ki, niyə Azərbaycan ermənilərin atəşinə cavab verib, niyə onları narahat edib. Buradan da belə bir nəticə hasil olur ki, nəyinizə lazımdı torpaq, onu qorumayın, müdafiə etməyin, qoyun bizim vaxtımızdakı kimi erməni işğal etsin. Vallah bunların məqsədi budur, bunlar üçün torpaq, Vətən anlayışı yox dərəcəsindədir.

Övladlarına xaricdə gün ağlayıblar, oturdublar onları orada, özləri də əslində bir aralar oralarda idilər, torpaqları təzə satdıqları vaxtlar. Sonra aradan bir az keçəndən sonra qayıtdılar. Qayıtdılar deyəndə ki, Vətəndən yana qayıtmadılar ha. Tapşırılanları, sifarişləri yerinə yetirməyə qayıtdılar. Elə o vaxt, bu vaxt da yuyulmamış qaşıq kimi atılırlar meydana, "biz də varıq" deməyə çalışırlar. Lakin bunları ta kimdir dinləyən.

Bu xalq sizi tanımasaydı, hə, deyərdik ki, bircə kəlmənizə inanar. Axı sizi yaxşı tanıyırıq. Nəyə, kimə, haraya xidmət etdiyinizi də yaxşı bilirik. Əşi, çıxın gedin işinizin dalınca, nə istəyirsiniz axı? Torpağı erməniyə satıb, budur, bizi 30 ildir ki, zülmlə, əzab-əziyyətlə üz-üzə qoymusunuz, biz sizin səhvlərinizi düzəltməkdən yana minlərlə övladımızı qurban vermişik, minlərlə övladımız sağlamlığını itirib, indi bəs nə istəyirsiniz? Adamın neçə üzü, sifəti olar? Adam da adama, nə edirsiniz torpağı, deyər, adam da adama niyə erməniyə güllə atırsınız, deyər?

Vallah çox fikirləşirəm, düşünürəm ki, adamın bir olmayandan sonra ən azından iki sifəti olar. Amma görürəm ki, yox, səhv düşünürmüşəm, daha çox sifətlər də varmış.

Naxçıvanda bir bitki var, adı ələyəzdir. Xüsusiyyəti də budur ki, külək hansı tərəfə əsirsə, o tərəfə meyil edir, çünki gücsüzdür, müvazinətini saxlaya bilmir. Ona görə də el arasında "ələyəz yeli" kimi deyim formalaşıb. Fikri, əqidəsi, amalı bilinməyən adamlara ələyəz yelli deyirlər. İndi vallah, bu müxalifətçilər ələyəz yelindən başqa heç nə deyillər. Kim çox pul verirsə, o səmtə yıxılıb onun sözünü deyirlər. Baxın, bu da bizim müxalifət...

***Mətanət MƏMMƏDOVA***

# "Nar" Ağdam və Füzuli məktəblərinə səfər edib





"Nar" 2-ci Qarabağ müharibəsi dövründə hərbi əməliyyatlar zamanı zərərçəkmiş məktəblərə dəstək məqsədilə birinci sinif şagirdlərinin görüşünə gedib. Füzuli və Ağdamda ümumilikdə beş tam orta məktəb olmaqla, "birinci"lərə mobil operator tərəfindən bütün dərs ləvazimatları hədiyyə edilib.

"Nar" artıq bir neçə ildir ki, korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində Azərbaycanın müxtəlif bölgələrində təhsil alan şagirdlərin məktəb həyatına ilk addımlarını dəstəkləyir. Məqsəd bölgələrdə təhsil alan şagirdlərin ailələrinə dəstək olmaq və şagirdlərə dərslərində daha da uğurlu olmaları üçün stimul verməkdir. "Nar"ın KSM strategiyası çərçivəsində həyata keçirdiyi digər layihələri ilə www.nar.az/projects/ səhifəsindən tanış ola bilərsiniz.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Yetkinlik yaşına çatmayan narkokuryer saxlanılıb



Səbail Rayon Polis İdarəsi və ərazi polis bölmələrinin əməkdaşları tərəfindən rayonun Bayıl, "20-ci sahə" və Badamdar qəsəbələri ərazilərində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərə qarşı əməliyyat keçirilib.

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən SİA-ya verilən xəbərə görə, tədbir zamanı qeyd edilən yerlərdə narkotik maddələrin satışını həyata keçirən 17 nəfər saxlanılıb. Həmin şəxslərdən ümumilikdə külli miqdarda heroin, tiryək və psixotrop maddə olan metamfetamin aşkar edilib. Saxlanılanlar narkotik vasitələri sosial şəbəkələrdə tanımadıqları xarici ölkə vətəndaşlarından onlayn yolla şəxsi istifadələri ilə yanaşı paytaxt ərazisində satmaq məqsədi ilə əldə etdiklərini bildiriblər.

Qeyd edək ki, saxlanılan şəxslər sırasında narkotik vasitələrin satışı ilə məşğul olan ana və onun narkokuryerliyə cəlb etdiyi yetkinlik yaşına çatmayan oğlu da var.

Faktlarla bağlı toplanan materiallar Səbail RPİ-nin İstintaq Şöbəsinə göndərilib. Bu şəxslərin hər biri barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Saxlanılanların cinayət əlaqələrinin müəyyən edilməsi, həmçinin Səbail rayonu ərazisində narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan digər şəxslərin tutulmaları istiqamətində polis əməkdaşları tərəfindən əməliyyatlar davam etdirilir.

# Rusiyalı ekspertlər: Rusiya, Türkiyə və Azərbaycan Qərbin regiondakı oyununu pozdu

***"Yerevan Qərbin təhriki ilə Bakını sərt hərbi reaksiyaya vadar etdi, Azərbaycanın ərazi bütövlüyünə təhlükə davam edərsə, bu təhlükə hərbi yolla yatırılacaq"***

Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il noyabrın 9-da imzaladığı üçtərəfli bəyanatdan sonra genişmiqyaslı eskalasiyalardan bir neçə gün əvvəl Azərbaycan və Ermənistan sərhədində baş verib. Azərbaycan Müdafiə Nazirliyi bəyan edib ki, "Ermənistan silahlı qüvvələrinin diversiya qrupları günün qaranlıq vaxtında dağlıq ərazidən və mövcud dərə boşluqlarından istifadə etməklə Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı əraziləri və müxtəlif istiqamətlərdə təchizat yollarını minalayıb. Ermənistan silahlı qüvvələrinin Basarkeçər, İstisu, Qarakils və Gerus yaşayış məntəqələri istiqamətində



yerləşən bölmələri müxtəlif silahlardan, o cümlədən minaatanlardan, bəzi mövqelərdən, sığınacaqlardan Azərbaycan ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki dayaq məntəqələri intensiv atəşə tutulub. Nəticədə şəxsi heyət arasında itkilər, hərbi infrastruktura ziyan dəyib. 70-dən artıq Azərbaycan hərbçisi şəhid olub. 200-dən artıq erməni hərbçinin məhv edildiyi bildirilir.

Ermənistan silahlı qüvvələrinin təxribatlarının və ölkəmizin ərazisinə və suverenliyinə qarşı hərbi təhdidlərin qarşısının alınması, Kəlbəcər və Laçın rayonlarında infrastruktur işlərinə cəlb olunmuş hərbi qulluqçularımızın, o cümlədən mülki işçilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə bu istiqamətdə yerləşən Azərbaycan ordusu qətiyyətli cavab tədbirləri görüb.

Nazirlik bildirib ki, son günlər Azərbaycan və Ermənistan sərhədində Ermənistan silahlı qüvvələrinin toplanması müşahidə olunur. Təxribatın məqsədi Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını pozmaq, nəqliyyat və iqtisadi əlaqələrin qarşısını almaqdır.

Qarşıdurmadan sonra Ermənistan Fransa, ABŞ və Avropa Şurasının rəhbəri ilə telefon danışığı aparıb, həminin KTMT-yə müraciət edib. ABŞ dövlət katibi Ermənistanı dəstəkləyən bəyanat verib. Fransa isə İrəvanın xahişi ilə eskalasiya ilə bağlı BMT Təhlükəsizlik Şurasının iclasının keçirilməsi təşəbbüsü ilə çıxış edib, Emmanuel Makron Ermənistanın ərazi bütövlüyünü dəstəkləyib. Ölkə parlamentində çıxış edən Nikol Paşinyan yenidən Qarabağın "statusu" məsələsini gündəmə gətirib və bəyan edib ki, İrəvan Cənubi Qafqazda nəqliyyat və iqtisadi əlaqələrin blokdan çıxarılmasının dəhliz məntiqini müzakirə etməyəcək.

Bu arada Rusiya liderinin köməkçisi Yuri Uşakov sentyabrın 15-16-da Özbəkistanın Səmərqənd şəhərində ŞƏT-in iclası çərçivəsində Putinlə Əliyev arasında görüş keçiriləcəyini açıqlayıb və danışıqların vacib olacağını vurğulayıb. "Moskva-Baku" portalı vəziyyətlə bağlı rusiyalı ekspertlərin fikirlərini öyrənib. Şərhləri oxucularımıza təqdim edirik.

**Cənubi Qafqaz Strateji Araşdırmalar Mərkəzinin direktoru Yevgeni Mixaylov:**

- Erməni tərəfi növbəti dəfə "çirkli suda balıq tutmaq" oyununu oynamağa cəhd etdi. O, 2020-ci ilin noyabrında Rusiya, Azərbaycan və Ermənistan liderlərinin əldə etdiyi razılaşmaları yenidən formatlaşdıra bilmir. Paşinyan Brüsselə getməyə davam edir, hər yerə şikayət edir, vəziyyəti ən azı bir şəkildə Ermənistana tərəf çevirməyə çalışır. İndi növbəti təxribat baş verib, Azərbaycan buna cavab verib.

Bundan sonra Paşinyan növbəti dəfə KTMT-dən dəstək istəyib. Bu, Rusiya üçün ən əlverişsiz vəziyyətdir. Ermənistan rəhbərliyi üçüncü dövlətlərin maraqlarından çıxış edir. Ermənistan rəhbərliyində Avropa İttifaqını, ABŞ-ı sevənlər çoxdur. Eyni zamanda, ermənilər Rusiyaya gülümsəyərək, Qərb dövlətlərinin maraqlarına uyğun olaraq öz kartını oynamaq qərarına gəldi. Qərbin dəstəyi, razılığı olmasaydı, Ermənistan təxribata cəsarət edə bilməzdi. İndi Rusiyanın Ukraynadakı xüsusi hərbi əməliyyatı kontekstində belə təxribatlar, yumşaq desək, çox yersizdir. Və belə bir vəziyyətə KTMT-ni cəlb etmək məqsədəuyğun deyil. Moskva növbəti dəfə Azərbaycanla Ermənistan arasında atəşkəs haqqında razılığa nail olub və vəziyyəti stabilləşdirməyə çalışıb.

Heç kimə sirr deyil ki, 2020-ci ilin payızında Azərbaycanla Ermənistan arasında gedən müharibə zamanı sülhməramlı prosesin təminatçısı kimi məhz Rusiya çıxış edib. Məhz Rusiya Ermənistana xəbərdarlıq edib ki, əgər erməni tərəfi işğal olunmuş əraziləri Azərbaycana qaytarsaydı, İkinci Qarabağ müharibəsinin qarşısını almaq olardı.

Nəzərə almaq lazımdır ki, bu il fevralın 22-də Azərbaycan Rusiya ilə Müttəfiqlik Əməkdaşlığı haqqında Bəyannamə imzalayıb. Bu məqam da nəzərə alınmalıdır. İlham Əliyev ciddi diplomatdır və beynəlxalq aləmdə çıxış etməyi, məqsədlərinə çatmağı bilir. Paşinyan və onun qeyri-sabit komandası fonunda Azərbaycan sərhəddə baş verən aksiyaları bəyan etməkdə müqayisə olunmaz dərəcədə inandırıcı görünür.

Ermənistan tərəfinin tələbi ilə heç kim KTMT qoşunlarını eskalasiya zonasına göndərməyəcək. Axı dəfələrlə belə təxribatlar olub, sonra Ermənistandan xahişlər olub. Amma KTMT ölkələri buna razı olmadı.

Təxribatın məqsədi sülh müqaviləsinin imzalanmasını pozmaq və Cənubi Qafqazda nəqliyyat və iqtisadi əlaqələrin qarşısını almaqdır.

Son eskalasiyadan sonra Paşinyan, bu mövzuda çox qəribə bəyanatlar verdi ki, guya Azərbaycan Ermənistan ordusunun dirçəlməsindən "qorxur", Ermənistanın silah almaq üçün hər cür imkanları var, hər şeydə günahkar Azərbaycandır. Mən dəfələrlə demişəm: Paşinyanın həqiqətən gülməli çıxışlarını müzakirə etməyi dayandırın. Axı onun bütün vədləri, bəyanatları heç nədən ibarətdir. Yaxşı olardı ki, o, Ermənistan ordusunun yenidən silahlanmasından deyil, Azərbaycanla sülh müqaviləsi bağlansa, iqtisadi səmərə əldə edəcək xalqının xeyrindən danışsın. Və bu daha düzgün olardı. Paşinyanın indi ordunun yenidən silahlanmasından danışması isə sadəcə gülüncdür. Bu barədə düşünmək lazım deyil. Bu ordu Azərbaycana müqavimət göstərmək gücündə deyil, bunlar Ermənistan dövlətinin ölümünə səbəb olacaq illüziyalardır. Bunu unutmaq olmaz. Yenə qışqıracaqlar: "Bizə, kömək edin!". Hesab edirəm ki, indi baş verənlərin hamısı Rusiyaya zərbə vurmaq üçün qurulmuşdur.

Blinkenin Azərbaycanı pisləməsi, Fransanın BMT Təhlükəsizlik Şurasını çağırması. Eyni zamanda, hamısı guya Azərbaycanla dost olmağa çalışırlar. Bütün bunlar ABŞ nümayəndəsinin Ermənistana səfərindən sonra baş verdi. Görünür, amerikalılarla məsləhətləşmələrdən sonra bu təxribat baş verib.

Nə etməli? Azərbaycanın ərazi bütövlüyünə təhlükə davam edərsə, bu təhlükə hərbi yolla yatırılacaq.

İlham Əliyev və Vladimir Putin Səmərqənddə Şanxay Əməkdaşlıq Təşkilatı sammiti çərçivəsində danışıqlar aparacaqlar. Putin sülh prosesində əsas təminatçısı, əsas vasitəçidir. Düşünürəm ki, başqa formatlarda görüşlər də mümkündür. O cümlədən Ərdoğan da sammitdə iştirak edəcək. Və indi Fransa və ABŞ-ın, görünür, Ermənistanın tərəfini necə açıq şəkildə tutduqlarını nəzərə alsaq, Rusiya ilə Qərb arasındakı münaqişəni və Moskva ilə Ankara arasında möhkəmlənən münasibətləri nəzərə alsaq, düşünürəm ki, həm Putinin, həm də Ərdoğanın müzakirə edəcəyi bir məsələ olacaq. Qərb Ermənistan-Azərbaycan nizamlanmasında Ermənistanın tərəfini tutmağa qərar verəndə, Paşinyanın çağırışı ilə BMT Təhlükəsizlik Şurasının iclasları qaldırılanda (baxmayaraq ki, bu, heç nəyi həll etməyəcək), Avropa institutları yekdil reaksiya verəndə, artıq yeni oyun başlayır. Aİ Cənubi Qafqaza daxil olmaq üçün fürsətdən istifadə edərək Ermənistan vasitəsilə qərar verdi. O, Azərbaycana qarşı oynayacaq. Rusiya, Türkiyə, Azərbaycan isə Qərbin bu oyununa müqavimət göstərmək üçün öz səylərini əlaqələndirməli olacaq.

**Politoloq, PolitRUS portalının rəhbəri Vitali Arkov:**



- Nikol Paşinyan Ermənistandakı vəziyyətə nəzarət etmir. Onun keçən il generalitetlə qarşıdurmasını xatırlayırıq. Paşinyan üçün eskalasiya vəziyyətin ən yaxşı inkişafı üçündür. Ermənistanda revanşist əhval-ruhiyyə hələ də aradan qalxmayıb. Paşinyan "həm bizim, həm də sizin" taktikasını seçsə də, Azərbaycanın qəti şəkildə rədd etdiyi tələblərlə, hələ də sülh müqaviləsi imzalamağa meyillidir.

27 sentyabr və 10 noyabr Ermənistanda az qala matəm günləri sayılır. Düşünürəm ki, gecə eskalasiyasının təşəbbüskarı olan qüvvələr İkinci Qarabağ müharibəsinin başlanmasının ildönümünə qədər müəyyən nəticələr əldə etmək istəyirdilər. Bu əvvəllər itirilmiş bəzi ərazilərə nəzarət ola bilərdi. Görünür, onlar istəyirdilər ki, tarixlər Ermənistan tarixində qara rəngdə qalmağı dayandırsın, amma yeni rənglərlə parıldasın. Aydındır ki, eskalasiyanın məqsədi sülh müqaviləsinin imzalanmasını təxirə salmaqdır. Yəqin ki, Ermənistanın ağlı başında olması və danışıqlar apara bilməsi, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi üçün gələcəkdə Ermənistan rəhbərliyində dəyişiklik lazımdır.

Ermənistan hazırda rəhbərlik etdiyi KTMT-yə müraciət edib. Düzdür, biz bir daha Azərbaycanın Ermənistanın suveren ərazisini işğal etməsi ilə bağlı bəyanatlara rast gəlmədik. KTMT-nin reaksiyası üçün hüquqi şərait yoxdur, Azərbaycan Ermənistana hücum etməyib. KTMT ölkələrinin Azərbaycanla döyüşəcəyinə şübhə edirəm. Bu, tamamilə qeyri-real ssenaridir. Amma Qərb qüvvələri Rusiya ilə Azərbaycan arasında münasibətləri korlamağa çalışır. Əminəm ki, həm Moskvanın, həm də Bakının kifayət qədər müdrikliyi olacaq. Üstəlik, bizim liderlərimiz çoxdan bir-birini tanıyır, dostluq münasibətləri inkişaf etdiriblər. Və biz bunu görürük. İki liderimiz, iki dövlətimiz və xalqlarımız arasında münasibətlər inkişaf etdikcə üçüncü qüvvələr onları poza bilməyəcək.

Eskalasiya digər məsələlərlə yanaşı, Qərb qüvvələrinin Cənubi Qafqazda Ukrayna ilə paralel ikinci cəbhə açmaq, nəticədə bu cəbhəni Azərbaycan və Türkiyəyə tərəf sürüşdürmək istəyidir. Türkiyə isə bu gün Rusiyanın əsas tərəfdaşlarından biridir.

Eskalasiyadan sonra Paşinyanın davranışı növbəti dəfə təkrarlanan nümunədir: xarici liderlərə çağırışlar, Azərbaycana qarşı ittihamlar. Baş nazir indi evin ağası olduğunu göstərməyə çalışır. Amma vəziyyət nə Qarabağın statusundan, nə də Zəngəzur dəhlizindən, nə Ermənistanın baş nazirindən, nə də bütövlükdə İrəvandan asılı deyil. Məsələ həll olunub - Moskva həm Zəngəzur dəhlizinin mövcudluğuna, həm də Qarabağ məsələsinə qarant kimi çıxış edir. Ümumiyyətlə, artıq heç nə İrəvandan asılı deyil... Ermənistan tərəfdən isə təxribatlarla sülh prosesini ləngitmək istəyənlər, əksinə, onu aktivləşdirəcəklər. Rusiya təbii ki, qəti şəkildə Ermənistana bu cür təxribatların yolverilməzliyini göstərir. Bundan əlavə, bu günlərdə Səmərqənddə keçiriləcək ŞƏT sammiti çərçivəsində bu məsələ ilə bağlı Vladimir Putinlə İlham Əliyev arasında ikitərəfli, həmçinin çoxtərəfli görüşlərin keçiriləcəyi şübhəsizdir.

*Tərcümə - Elçin Bayramlı*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"" istiqaməti çərçivəsində hazırlanıb.***

SƏS
17 sentyabr
2022-ci il

# Damarları təmizləyən məhlul



Çox yağlı yeməklər damarlarınızın tıxanmasına səbəb olur. Damarların bu hala gəlməsi ürək damar xəstəlikləri, infarktı və müxtəlif xəstəlikləri də özü ilə gətirir. Damarların daha sağlam ola bilməsi üçün damar sağlamlığı baxımından faydalı olan yeməkləri istehlak edə bilərsiniz.

Damar yaşınızı cavanlaşdıracaq, damar təmizləyən məhlullar reseptini hələ sınamadınızsa, aşağıdakı reseptə baxa bilərsiniz.

Vəsaitlər

**- 250 ml zəncəfil suyu**
**- 250 ml sarımsaq püresi**
**- 250 ml limon suyu**
**- 250 ml alma sirkəsi**
**- 5 xörək qaşığı bal**

Baldan başqa hamısını qarışdırın və orta istilikdə 30 dəqiqə bişirin. Məhlulu davamlı qarışdırın. Daha sonra bir kənara qoyub soyumasını gözləyin.

Qarışığa bal əlavə edin, qarışdırın və qarışığı təmiz bir şüşəyə tökün. Bu məhlulu soyuducuda 1 ya 2 ay ərzində saxlaya bilərsiniz.

Bu məhlulu ac qarına hər səhər 1 xörək qaşığı için.

**Faydaları**

Sarımsaq və bal, qan təzyiqini və xolesterol səviyyəsini azaldır, zəncəfil ürək xəstəliklərini önləyir, limon ürək döyüntülərini nizamlayır, alma sirkəsi bədəndən toksinləri təmizləyir.

Bu üsul alternativ tibb üsuludur. Tərkibində olanlara qarşı bir allergiyanız olub olmadığını öyrənmək üçün bir mütəxəssisə müraciət etmək lazımdır.

# Artıq futbol da bir siyasətdir

**İlham Əliyev**
@azpresident

Qarabağ (Azərbaycan) - Nant (Fransa) - 3:0.
Darmadağın!
Qarabağ Azərbaycandır!

## Prezidentin dünyaya mesaj verən çox önəmli tviti!

***Məlum olduğu kimi, Ağdamın "Qarabağ" futbol komandası UEFA Avropa Liqasının qrup mərhələsində növbəti oyununu keçirdi və Qurban Qurbanovun baş məşqçi olduğu komanda G qrupunun II turunda Bakıda Fransanın "Nant"ı ilə üz-üzə gəldi.***

Bəri başdan qeyd edək ki, "Qarabağ"lılar sentyabrın 12-13-də Azərbaycanla Ermənistanın müəyyən olunmamış sərhədlərində erməni təxribatının qarşısının alınması zamanı Vətən uğrunda canlarını fəda etmiş əsgər və zabitlərimizin əziz xatirələrini bir dəqiqəlik sükutla yad etmək üçün UEFA-ya rəsmi müraciət etmişdi. Lakin UEFA bu müraciəti qəbul etməyərək, əslində, bir daha ortada ikili standartlar faktının mövcud olduğunu nümayiş etdirdi. Ancaq buna baxmayaraq, Tofiq Bəhramov adına Respublika stadionundakı azarkeşlər qarşılaşma başlamamışdan əvvəl Ermənistanla sərhəddə hərbi əməliyyatlar zamanı şəhid olan Azərbaycan hərbçilərinin xatirəsini sükutla yad etdilər və ən azından, ikili standartlar stereotipinə də qarşı aparılan mübarizənin bir yolunun olduğunu isbatladılar.



Söz yox ki, bu oyun yalnız idman yarışı kimi deyil həm də siyasi tərəfdən də öz əhəmiyyəti ilə seçilirdi və bunu, əslində, ermənilərə daim dəstək göstərən fransızlar da, eləbacılıqları olan ermənilər də yaxşı anlayırdılar. Həmçinin, burada futbol şərhi verməyi lüzum bilmədiyim üçün əsas mətləbə keçməyə qərar verdim. Hər halda, öz işlərinin peşəkarları, yeni futbol mütəxəssisləri və idman jurnalistləri onsuz da görüşün təfərrüatları, oyun texnikasının qurulması və s. barədə gen-bol informasiyalar veriblər.

Beləliklə, rəqibini 3:0 hesabı ilə məğlub edən və avrokuboklarda adını növbəti dəfə tarixə yazan "Qarabağ" qrup mərhələsində ilk qələbəsini qazandıqdan dərhal sonra Azərbaycan Prezidenti İlham Əliyev Tvitter hesabında möhtəşəm təbrik tviti atıb:

**Qarabağ (Azərbaycan)-Nant (Fransa) - 3:0**

**Darmadağın!**

**Qarabağ Azərbaycandır!**

Məhz bu mühüm məqam hər birimizin diqqətini çəkdi və bu mülahizəni də irəli sürməyə şərait yaratdı ki, əslində idman da bir siyasətdir. Bəli, zamanında siyasətin idmana heç bir aidiyyatı olmadığı deyilirdi, fəqət müasir dövrümüzdə dəyişən siyasi mühit və hadisələr artıq həmin ifadənin çıxdaş olduğunu təsdiqləyir və nəinki idmanda, eləcə də mədəniyyət və s. sahələrdə də siyasət hər növ sahənin tərkib hissəsində özünə yer edib. Misal üçün, elə götürək yenə də futbolu. Azmı olub ki, istər milli komandamız, istərsə də ayrı-ayrı klublarımız Dünya və Avropa oyunları çərçivəsindəki qrup mərhələlərində çıxış edərkən 100%-lik penalti və ya cərimə zərbələrinin tətbiq edilməsinin qarşısı alınıb? Azmı olub ki, 100%-lik qollarımız hesaba alınmayaraq "ofsayd" kimi qiymətləndirib? Dəfələrlə olub! Uzağa getməyərək, "Qarabağ"ın Almaniyanın "Frayburq" komandası ilə UEFA Avropa Liqasının qrup mərhələsindəki oyuyunda üzləşdiyi haqsızlığı da qeyd etməyərək düşərdi. Hənmin oyunda "Frayburq"un haqq etmədiyi qolu hesaba alındı, üstəlik, "Qarabağ"ın haqq etdiyi penaltisi təyin edilmədi. Nəticədə komandamıza qarşı açıq-aşkar ikili standartlar tətbiq olundu, yəni komandamız qəsdən uduzduruldu!




Hətta oyunlardan sonra təkrar videoyazılara baxan UEFA rəsmiləri bütün bunları təsdiq ediblər, amma əlbəttə ki, çox gec olub. Atalar demişkən, daldan atılan daş topuğa dəyər, yaxud bu kimi oyunbazlıqlar toydan sonra nağara vurmağa, və ya xəlbirlə su daşımağa daha çox bənzəyir.

Beləliklə, Prezident İlham Əliyev komandamızın bu qələbəsinə hətta önəmli səfərdə olduğu bir zamanda sevinci ilə izhar etdi, qürurla və bir neçə cümlə ilə dünyaya "Qarabağ Azərbaycandır!" mesajını yolladı. Əslində həmin mesajın siyasi tərəflərini görməmək mümkün deyil. Dünya bilir və görür ki, Azərbaycan özünün əzəli torpaqlarını - Qarabağı erməni işğalından azad etməsi üçün hansı çətinliklərdən keçdi və bu çətinliklərin hər birinin təməlində ikili standartlar, açığını desək, xristian klubu maraqları dayanırdı. 30 il (!) Azərbaycan xalqı gözlədi, səbr etdi, amma bu gözləntilər də istənilən nəticəni vermədi. Sonunda lazım olan addım atıldı və bu gün o torpaqlarımız düşmən tapdağından azad edilib. Qalır çox cüzi hissəsi ki, əslində həmin hissənin də tezliklə separatçı tör-töküntülərindən təmizlənəcəyinə sayılacaq vaxtlar qalıb, lap az..!

"Qarabağ" alın təri ilə qazandığı qələbəsini öz əziyyəti, qarşılaşdığı haqsızlıqlar fonunda, əsl mübarizə aparması ilə əldə etdi, öz sözünü dedi, oyunu ilə də sübut etdi! Necə ki, Azərbaycan dövləti və xalqı öz şanlı Ordusu, Müzəffər Ali Baş Komandanı ətrafında birləşməklə həmin mübarizəsini cəbhədə göstərdi. Və bütün bunların paralellik təşkil etməsini kimsə inkar edə bilməz.

Artıq futbol da bir siyasət meydanıdır və Prezidentimizin tviti də, əslində, dünyaya verilən növbəti mesaj oldu - Qarabağ Azərbaycandır və əbədiyyən də Azərbaycan olacaq, bu torpaqlarımızın hər qarışında, hər addımında Azərbaycan olub, var və olacaq!

***Rövşən RƏSULOV***

BİZİM NƏZƏRDƏN+AKTUAL

## BİLİRSİNİZMİ?



Dünya statistikasına görə itən insanların 3/ 2-si meşədə ölü tapılır.

* * *

Dünyanın ən varlı adamı sayılan Elon Muskun sərvəti 277milyard dollardır. (Əlavə olaraq 121milyard dollar gəliri var)

* * *

Dünyanın ən bahalı evi 471milyon euro Romada 16-ci yüzillikdə inşa olunub. Villa Aurora üçün hərracda minimum açılış qiyməti 353 milyon euro olub.

* * *

Dünyanın ən uzun ilanın uzunluğu 8 metr çəkisi 250 kilodur.

* * *

Microsoft şirkətinin ümumi illik gəliri 143 milyard dollardır.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**